القرآن الكريم

# QURAN İLƏ TANIŞLIQ

## Quran surələrindən və ayələrindən nümunələr



Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri

بسم الله الرحمن الرحيم

# Müqəddimə

Bu kitabı oxumağa başlayan hər bir hörmətli oxucuya ən səmimi salamlarımı və xeyir-dualarımı çatdırıram. Mən bu kitabda sizə yol göstərdiyimi, sizlərə rəhbərlik etdiyimi iddia etmirəm; əksinə, mən də bu mübarək həyat yolçuluğunda çiyin-çiyinə sizinlə birgə addımlayıram. Gəlin, Quranın rəhbərliyi və nuru altında həyat yolunun eniş-yoxuşunu birlikdə kəşf edək!

Quran ayələri Allahın bəşəriyyətə ünvanladığı ən doğru və ən mötəbər kəlamıdır. Allahın vəhy etdiyi heç bir kitab Quran ayələri qədər qorunmamışdır. O, Allahın yer üzündəki bəşəriyyətə göndərdiyi son sözü və insanlıq üçün ən güclü hidayət mənbəyidir: "**Həqiqətən, bu Quran (insanları) ən doğru yola yönəldir**" *(İsra surəsi, 9)*. Bu yol sosial baxımdan ən doğru, mədəni baxımdan ən kamil, siyasi baxımdan ən sağlam, mənəvi, cismani və həyati baxımdan isə ən düzgün yoldur.

Bəşər övladından elə bir kəs yoxdur ki, Allahın insanlığa nazil etdiyi Quran ayələrini oxumağa ehtiyac duymasın. Çünki insan varlığın o həlledici və çətin suallarına – *"Mən haradan gəlmişəm? Nə üçün buradayam? Hara gedirəm? Məni gözləyən son nədir?"* kimi suallara ən doğru və aydın cavabı məhz Quranda tapa bilər.

Quran ayələri ilə həqiqət ortaya çıxır, insanın həyat vəzifəsi bəlli olur, gedəcəyi yol müəyyənləşir, sonu və aqibəti bilinir. Beləcə, gözlərimizdən çaşqınlıq pərdəsi qalxar, qəlbimizdən narahatlıq və təlatüm hissi silinib gedər. Varlığın ən

təhlükəli və ən aktual suallarına ən doğru cavabları tapmaqla, tərəddüdün yerini iman və yəqinlik, təşvişin yerini isə qəlb rahatlığı və hüzur tutar: "**Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi biləndir!**" *(Təğabun surəsi, 11)*.

Bu kiçik risalədə Qurani Kərimin bəzi surə və ayələri ilə yanaşı, onların mənalarını oxucu üçün daha anlaşılan edən qısa şərhlər də yer almışdır. Bu, hələ Quranla tanış olmamış, onu oxumamış kəslər üçün onu tanıdan bir nümunə olsun ki, beləcə oxucu Quranla ilk tanışlıq yolunda aydınlana bilsin. Bir müəllif olaraq, bu kitabçanın Quranla yaxından tanışlıq üçün bir vəsilə və təşviq rolunu oynamasını təmənni edirəm.

Lakin kitabda təqdim olunan məlumatlar kimsəni Quranı əvvəldən axıra qədər bütövlükdə oxumaq ehtiyacından azad etmir və onu əvəz eləmir. Əksinə, qeyd olunan bu bilgilər oxucu üçün bir köməkçi vasitədir ki, daha sonra o, Quranın tamamını oxuyarkən onun əsas xüsusiyyətləri, ali məqsədləri və ümumi istiqaməti artıq zehnində aydınlaşmış olsun.

Allahdan diləyirəm ki, bu kitabı haqqı arzulayan və həqiqət axtarışında olan hər kəs üçün bir hidayət vəsiləsi etsin. "**Allah dilədiyi kimsəni düz yola yönəldər**" *(Bəqərə surəsi, 213)*.

**Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri**

İstanbul, Başakşehir
28 fevral, 2025-ci il

# Quranla tanışlıq

**Birinci:** Quran necə nazil oldu?

**İkinci:** Quranın bürhanları (təkzibolunmaz dəlilləri).

**Üçüncü:** Quranın doğruluğuna dair sübutlar.

**Dördüncü:** Quranın qorunması.

## QURAN NECƏ NAZİL OLDU?

İnsan övladının yer üzündə varlığı mənasız olmadığı kimi, təsadüfü də deyildir. Əksinə, bu varlıq Yaradanın onları xəlq etdiyi gündən bəri təqdir etdiyi ilahi bir hikmətə dayanır. İnsanın varlığı – həyatı əvvəli keçici (fani), sonrası isə əbədi olan bir həyatdır: "**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz Bizim hüzurumuza qaytarılmayacaqsınız?**" *(Muminun surəsi, 115)*.

Yaradan Rəbbimizin hikmət və rəhmətinin təzahürüdür ki, O, bəşəriyyəti varolma səbəbini, nə üçün yaşadığını, həyat yolunu və sonunun nə olacağını – hara gedəcəyini çaşqınlıq içində axtarmağa tərk etməmiş, onları başıboş buraxmamışdır. Yaradan hikmətinin bir tələbi olaraq yaratdıqları arasından elçilər seçmiş, onları Özü ilə insanlar arasında vasitəçi olsunlar deyə yaratmışdır. Onlar Onun risalətini (ilahi mesajı) daşımağa bəşər övladları içərisində ən layiqli kəslər olduqlarına görə Allah tərəfindən seçilmişlər.

Sonra Allah, bu elçiləri Öz tərəfindən nazil etdiyi kitablarla və onlara vəhy etdiyi hökmlərlə insanların yanına göndərdi ki, onlara ilahi mesajı çatdırsınlar və *'bu, sizə ünvanlanmış Allahın kəlamıdır, ona tabe olun! Bu Allahın əmridir, ona itaət edin! Bu Onun hidayət yoludur, bu yola qədəm qoyun!'* – deyə onlara səslənsinlər.

Beləcə, Allahın əvvəlki elçilərinə – İbrahim, Musa, Davud, İsa və digər peyğəmbərlərə (onlara salam olsun) ilahi kitablar nazil edildi. Təbii ki, Allahın bəşəriyyətə xitab etməsi, bunu Öz elçilərinə vəhy yolu ilə çatdırması, Özü ilə

insanlar arasında elçilər təyin etməsi onlara qarşı olan rəhmətinin bir təzahürüdür. Çünki O, insanları çaşqınlıq və zəlalət içində buraxmamışdır. Eyni zamanda bu, Allahın Öz bəndələrinə qarşı ehtiramının göstəricisidir; belə ki, Uca və Əzəmətli Yaradan Öz xitabı ilə bu kiçik və aciz məxluqa üz tutur, onu Öz kəlamına layiq görür və elçiləri vasitəsilə ona vəhyini çatdırır.

Beləliklə, insan övladı həm Allahın ona xitab etməsi ilə, həm də Allahın insanlar arasından Onun kəlamını təbliğ edəcək elçilər seçməsi ilə ülvi bir ehtirama, uca bir şərəfə nail oldu. Yaradan yaratdığına lütf etdi və onlara çaşqınlıq labirintində azıb qalmasınlar və zəlalət girdabında boğulmasınlar deyə hidayət yolunu göstərdi. Bəşəriyyətə elə bir vəhy nazil etdi ki, orada yaradılışın məqsəd və hikmətini, bəndələrin üzərinə düşən vəzifələri, getməli olduqları doğru yolu, sonda onları gözləyən cəza, yaxud mükafatın və əbədi aqibətin nə olduğunu bəyan etdi.

Allahın nazil etdiyi vəhy insanı ağıl və mülahizə yolu ilə əldə edə bilməyəcəyi həqiqətlərə çatdırır. İnsan bu həqiqətlərlə qarşılaşdığı an Allahın ona bəxş etdiyi pak fitrəti onları həmən qəbul edir. Məhz buna görə də bəşəriyyət, Uca Yaradanın bu hidayətinə hər zaman sonsuz ehtiyac duymuşdur. Allahın bütün dövrlərdə Öz vəhyi ilə insanlığı tək qoymaması, peyğəmbərlərinə kitablar endirməsi Onun bəndələrinə göstərdiyi ən böyük lütfü, rəhməti və kəramətdir. Bu ilahi kitablar, bəşər tarixinin uzaq keçmişindən ta bu gününə qədər insanlıq üçün bir hidayət çırağı olmuşdur.

İbrahim peyğəmbərə səhifələrin, Musaya Tövratın, İsaya isə İncilin nazil edildiyi kimi (onlara Allahın salamı olsun), Qurani Kərim də eyni ilahi silsilənin davamı olaraq Məhəmməd peyğəmbərə ﷺ nazil edilmişdir.

Quran həqiqi mənada Allahın kəlamıdır, yəni onu söz olaraq ifadə edən Allah olmuşdur. Ruhul-Qüds, Cəbrayıl mələk isə onu Peyğəmbərə ﷺ çatdırmış, yəni Allah ilə bəşər arasında vasitəçi olmuşdur. Beləliklə, Uca Allah ondan əvvəlki peyğəmbərlərə vəhy etdiyi kimi, Qurani Kərimi də Məhəmməd peyğəmbərə ﷺ vəhy etmişdir. Allah bu ilahi ismarışı insanlara çatdırmaq üçün onların öz içindən, bəşər övladı olan birini seçmişdir. O, insanların ən xeyirlisi və ən fəzilətlisidir. İbrahimi, Musanı və İsanı öz qövmlərinə elçi seçdiyi kimi, onu da bütün bəşəriyyət üçün elçi seçmişdir.

O, sonuncu peyğəmbərə nazil edilmiş sonuncu müqəddəs kitabdır. Bu kitab bəşəriyyətin əbədi rəhbəri olmaq üçün göndərilmişdir; onun hidayət nuru bu kainatın ömrü və həyatın axarı sonlanana qədər nəsilləri addım-addım izləyəcək, onlara daima yol göstərəcəkdir.

## QURANIN TƏKZİBOLUNMAZ DƏLİLLƏRİ

Allah elə bir peyğəmbər göndərməmişdir ki, onunla bərabər, peyğəmbərliyinin doğruluğuna dəlalət edən və başər övladının bənzərini gətirməkdə aciz qaldığı bir nişanə (möcüzə) göndərmiş olmasın. Necə ki, Allah peyğəmbəri Musaya asanı bir ayət (dəlil) olaraq vermişdi; o, asanı yerə atdıqda sürətlə hərəkət edən canlı bir ilana çevrilərdi. Habelə onunla dənizə vurduqda sular yarılıb quru bir yola dönər, daşa vurduqda isə ondan büllur tək su fışqırardı.

İsa peyğəmbərə də özünəməxsus nişanələr bəxş edilmişdi; o, ölüləri dirildər, anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağaldardı. Bu cür maddi və gözlə görülən möcüzələr əvvəlki ümmətlərin dövrünə uyğun idi. Lakin Məhəmməd peyğəmbərin ﷺ risaləti təkcə öz dövrünə xas olmadığı üçün ona bəxş ediləcək peyğəmbərlik dəlili də hər bir nəsil və hər bir millət üçün daim təzələnən, əbədi bir möcüzə olmalı idi. Bu da Allahın ona nazil etdiyi Qurandır; peyğəmbərliyinin aşkar dəlili sayılan bir kitab.

Allah rəsulu ρ buyurmuşdur: *"Elə bir peyğəmbər yoxdur ki, ona bəşəriyyətin (görüb) iman gətirəcəyi bir möcüzələr verilmiş olmasın. Mənə verilən möcüzə isə Allahın mənə vəhy etdiyi vəhydir (Qurandır). Bu səbəbdən qiyamət günü ardıcılları ən çox olan peyğəmbərin mən olacağına ümid edirəm"*.[1]

Quran Uca Allahın kəlamıdır; Onu Öz elçisinə nazil etmiş, Peyğəmbər də Allahın buyurduğu şəkildə onu insanlara çatdırmışdır. İnsanlar o vaxta qədər bənzərini eşitmədikləri

---

[1] Buxari, 4981 və Müslim, 152

bir kəlam eşitdilər. Uca Allahın kəlamının – həm sözləri, həm də mənası baxımından – bəşər övladının kəlamı ilə müqayisə olunacağını necə düşünmək olar? Təbii ki, Allah kəlamının bəşər kəlamından üstünlüyü, elə Yaradanın Öz yaratdığından üstünlüyü kimidir.

Quran öz bəyanı (ifadə tərzi) ilə seçilən bənzərsiz bir kəlamdır. O, nə şairlərin şeirinə, nə natiqlərin nitqinə, nə də hikmət sahiblərinin kəlamına bənzəyir. O, bənzəri olmayan bir üslubda surələri və ayələri ilə misilsiz bir kəlamdır. Nə ondan əvvəl, nə də ondan sonra gələn heç bir kəlamda belə bir nizam, belə bir ahəng mövcud deyildir.

Onun ayələri heyrətamiz şəkildə öz yığcamlığı ilə seçilir; adətən yalnız uzun-uzadı cümlələrlə izahı mümkün olan böyük məsələləri cəmi bir neçə kəlmə ilə ifadə edir.

Quranın insanlara xitabı da valehedicidir. Onda həm əqli dəlillər, həm də qəlbi duyğulandıran ifadələr vəhdət təşkil edir. O, ağlı dəlillərlə qane edicilik metodu və qəlbi riqqətə gətirən üslubu özündə cəm etmişdir. Məhz buna görə də Quran, onu eşidən hər kəsə öz hökmünü diktə edir; hər kəsi sükutla dinləməyə, dərindən düşünməyə və təsirlənməyə məcbur qoyur.

Bundan əlavə, Quranın bu valehədici xitabı müxtəlif səviyyəli bütün insanları eyni dərəcədə əhatə edir; o, nə zəka sahiblərinin idrakından aşağı, nə də sadə insanların anlaya bilməyəcəyi qədər əlçatmazdır. Çox qəribə bir kitabdır! Hər kəs öz elmi və intellektual səviyyəsi nisbətində ondan öz payını götürür.

İnsan hər hansısa bir mətni, kəlamı təkrar-təkrar oxuduqda, adətən, ondan usanar, lakin Quran istisnadır; onu hər dəfə təkrar oxuduqca ona olan heyranlıq və şövq daha da artır. Hər hansısa bir mətni yenidən mütaliə etdikdə onda olan qüsurlar kəşf olunur, lakin Quran təkrar-təkrar oxunduqca hər dəfəsində onun üstünlükləri üzə çıxır.

Allah elçisi ﷺ bu Quranı insanlara gətirdiyi zaman, tam bir qətiyyət, arxayınlıq və əminliklə onlara belə deyirdi: "**Bu, o kitabdır ki, onda heç bir şəkk-şübhə yoxdur**" *(əl-Bəqərə, 2)*. Sonra o, insanların diqqətini bu kəlamın əzəmətinə yönəldərək, onlardan Quranın nizamına və mənasına bənzər cəmi bircə surə gətirmələrini tələb etdi. Daha sonra bu cəhdin nəticəsini onlara öncədən xəbər verdi: *"nə qədər cəhd etsəniz də, kimdən kömək istəsəniz də və bunun üçün sizə nə qədər möhlət verilsə də, yenə bunu əsla bacarmayacaqsınız"*. Uca Allah bu haqda belə buyurur: "**Əgər bəndəmizə nazil etdiyimizə (Qurana) şübhəniz varsa, onda ona bənzər (kiçik) bir surə gətirin və əgər doğru deyirsinizsə, Allahdan başqa (köməkçilərinizi) şahidlərinizi də çağırın! Əgər bunu etməsəniz – ki, əsla edə bilməyəcəksiniz...**" *(əl-Bəqərə, 23-24)*. Uca Allah buyurur: "**De ki: Əgər insanlar və cinlər bu Quranın bənzərini gətirmək üçün bir yerə toplansalar və bir-birinə kömək etsələr belə, yenə də onun bənzərini gətirə bilməzlər**" *(əl-İsra, 88)*. Bu meydanoxuma təkcə Peyğəmbər ﷺ ilə öz qövmü olan ərəblər arasında deyildir; bu, onunla bütün bəşəriyyət – müxtəlif dillərə və irqlərə mənsub olan hər kəs arasındadır. Hətta bu, Peyğəmbər ﷺ ilə həm onun öz zamanında, həm də ondan

sonra gələcək bütün dövrlərdəki insanların və cinlərin arasındakı bir sınaqdır.

Onun qövmündən olan müşriklər bu tələb qarşısında sarsıldılar. Axı onlar bəlağət və fəsahət sənətini hamıdan yaxşı bilən, kəlamın müxtəlif çalarlarını hamıdan yaxşı tanıyan insanlar idilər. Axı onlar, sözün əsl mənasında, söz sehirbazları idilər. Məhz buna görə də heyrət içində donub qaldılar; hiss etdilər ki, bu, elə bir ali və əlçatmaz kəlamdır ki, oraya yüksəlmək qeyri-mümkündür və heç kəs onun bənzərini gətirməyə cəhd etməyə belə cürət edə bilməz.

Quranın nazil edildiyi və bu tələbin elan edildiyi o gündən bu günə qədər onun bənzərini gətirmək üçün heç bir ciddi cəhd göstərilməmişdir və bundan sonra da əsla göstərilməyəcəkdir.

Bu ilahi kitabın – Quranın təsiri və valehedici gücü hələ də davam etməkdə və özünü göstərməkdədir. Belə ki, bu gün İslamı qəbul edən ziyalı insanların, mütəfəkkirlərin əksəriyyəti məhz Quranı oxuduqdan və onun mənalarından – hətta o mənaları başqa dillərə tərcümə olunmuş variantda oxusalar belə – təsirləndikdən sonra müsəlman olmuşlar. Qurandan təsirlənən insanlara nəzər salsanız, görərsiniz ki, onları hidayətə gətirən tək bir ayə və ya hamısına eyni dərəcədə təsir edən vahid bir mövzu yoxdur. Əksinə, hər kəsin Quranla bağlı özünəməxsus bir xatirəsi, digərlərindən fərqli bir hekayəsi vardır. Biri müəyyən ayələrdən elə təsirlənir ki, sanki o ayələr məhz onun üçün, onun halına özəl olaraq nazil edilmişdir. Bir başqası isə elə ayələrdən təsirlənir ki, həmin ayələrin birbaşa özünə xitab etdiyini və daxili aləmini təsvir etdiyini demişdir. Beləliklə, hər kəs

ondan fərqli bir yöndən təsirlənir; çünki hər kəs Quranda axtardığını tapır, probleminin həllini və sıxıntısının dərmanını orada görür. Əgər Quran müxtəlif düşüncəli insanlara daimi olaraq təsir edirsə, hər kəs öz ruhunun ehtiyacını və onu narahat edən böyük sualların cavabını orada tapırsa, deməli, bu kəlamın mənbəyi və sahibi elə həmin ruhları, həmin düşüncələri yaradan, onların ən incə nöqtələrini, meyllərini, həyəcan və təsir məqamlarını, həmçinin sual və tərəddüdlərini ən yaxşı biləndir: "**Məgər yaradan (hər şeyi) bilməzmi? O, (hər şeyi bütün incəliklərinə qədər bilən) Lətifdir, (hər şeydən) Xəbərdardır!**" *(əl-Mülk, 14).*[1]

[1] Əlavə məlumat üçün bax: Şeyx Məhəmməd Abdullah Drazın, «ən-Nəbəul-Azim» (Böyük Xəbər) və dr. Qari Millerin (Gary Miller), «əl-Quranul-Muciz» (Möcüzəvi Quran) adlı əsərləri.

## QURANIN DOĞRULUĞUNA DAİR SÜBUTLAR

**1.** Quran ərəb millətinin ilk yazılı mənbəyi sayılır. Belə ki, ondan əvvəl ərəblərin əlində hər hansısa bir yazı nümunəsi yox idi. Bu faktın özü sübut edir ki, Peyğəmbər ﷺ özündən əvvəlki heç bir yolu təqib etməmiş, heç bir nümunədən örnək almamışdır. Beləcə yazıb-oxumağı bacarmayan Məhəmməd, yazı-pozu ilə heç bir tanışlığı olmayan bir xalqa (bütün tarixin axarını dəyişəcək) bir kitab gətirdi. O ﷺ , savadsız bir toplumun içində yetişmiş, onların məclislərində iştirak etmiş, onlar kimi ömür sürmüş yazması və oxuması olmayan bir insan idi. Nə elmlə, nə də alimlərlə bir bağlılığı vardı. Ömrünün qırx ildən çoxunu bu şəkildə keçirmişdi. Bu müddət ərzində ondan nə bir şeir qoşduğu, nə bədahətən nitq söylədiyi, nə də zamanının bəlağət ustalarından rəvayət olunan sözlərə bənzər bir söz söylədiyi eşidilmişdi. Sonra isə qəfildən ortaya çıxaraq insanlara həyatı boyunca heç tanış olmadığı, bircə hərfini belə dilə gətirmədiyi həqiqətlərdən danışmağa başladı. Onlara qədim dövrlərin xəbərlərini, keçmiş elçilərin hekayələrini, insanlara təbliğ etdiklərinin mahiyyətini, dünya və axirətin həqiqətini xəbər verdi. İndi hansı məntiq bu yeni elmi mərhələni həmin o savadsız keçmişin təbii bir nəticəsi kimi qəbul edə bilər? Ağıl və məntiq nöqteyi-nəzərindən bu qaçınılmaz bir həqiqətdir ki, bu cür kəskin bir dəyişimin arxasında, insanın daxili aləmindən və köhnə biliklərinin hüdudlarından kənarda axtarılmalı olan başqa bir sirr dayanır.

2. Peyğəmbərin ﷺ kəlamındakı, xütbələri və məktublarındakı üslub hər kəsə məlumdur və bunların hamısı nəql olunmuş və qorunub saxlanılmışdır. Lakin burada olan dil üslubu tamam başqa, Quranda olan üslub isə tamamilə başqadır. Sanki iki ayrı aləmdir: bədiilik və bəlağət baxımından nə Quran ona bənzər, nə də ki, o, Qurana yaxın düşər.
3. Yusif, Musa, Davud, Süleyman, Əyyub, İsa (Allahın onlara salamı olsun!) kimi peyğəmbərlərin, eləcə də onlardan əvvəlkilərin qissələri ərəb xalqının mədəni irsində nəql olunmurdu; onlar bu tarixin təfərrüatlarına bələd deyildilər. Ərəblərin biliyi yalnız ulu babaları İbrahim və İsmayıl haqqındakı məlumatlarla məhdudlaşırdı. Lakin bu qissələr Quranda bütün təfərrüatı ilə aşkara çıxdı: "**Bunlar, sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi**" *(Hud surəsi, 49)*. Elə isə sual olunur; Məhəmməd ﷺ bu bilikləri haradan almışdı?
4. Nə özünün, nə də qövmünün bələd olmadığı keçmişin xəbərlərini çatdırdığı kimi, o ﷺ, həm də gələcəyə aid elə sadiq vədlər verdi ki, o vədləri söylədiyi gün onlara dair nə bir ipucu, nə də bir işarə var idi. Bunlar bir insanın mücərrəd ağıl və hiss ilə əldə edə biləcəyi məlumatlar deyildi. O, keçmişə dair nə dedisə, tarixin şahidliyi onu təsdiq etdi; gələcəkdən nə xəbər verdisə, gələcək illər və əsrlər onun doğruluğuna şahidlik etdi; Xaliqdən, mələklər və qeyb aləminin sirlərindən nə danışdısa, əvvəlki peyğəmbərlər və kitablar onu eynilə təsdiqlədi.

5. Məlumdur ki, Peyğəmbərin ﷺ ömür yolu çox ağır sınaqlardan keçmişdi; qızı Fatimədən başqa bütün övladları o sağ ikən vəfat etmişdi. Həyatında və qəlbində çox böyük yeri olan zövcəsi, xanım Xədicə isə ömrünün ən çətin anlarında dünyasını dəyişmiş və onu tək qoymuşdu. Lakin bütün bunlara rəğmən, Qurani Kərimdə bu hadisələrin heç birinə – nə övladlarının, nə də yoldaşının vəfatına dair tək bir kəlməyə belə rast gəlinmir. Halbuki bu itkilər ona böyük acı vermiş və ruhunu sarsıtmışdı. Əgər Quran onun şəxsi yaradıcılığının məhsulu olsaydı, o zaman onun qəlbindəki bu sarsıntılar və psixoloji yaşantılar mütləq ayələrin ruhuna da yansımış olardı.
6. Həmçinin Quran oxucusu böyük bir təəccüblə şahid olacaq ki, bu kitabda nə Peyğəmbərin ﷺ anasının adı, nə çox sevdiyi yoldaşının, nə də qızlarının adları zikr olunmuşdur. Hətta onun ən yaxın sirdaşı sayılan Əbu Bəkr, əmisi oğlu Əli və ya əmisi Həmzə kimi ən yaxın səhabələrindən belə heç birinin adı orada keçmir. Əksinə, Quranda təkrar-təkrar zikr olunan adlar və ancaq peyğəmbərlərin – İbrahimin, Musanın, İsanın və digərlərinin mübarək adlarıdır. Quranda adı birbaşa qeyd olunan, ismi təkrar-təkrar vurğulanan və bütöv bir surəyə adı verilən yeganə qadın isə İsa peyğəmbərin anası Məryəmdir. Bütün bunlar bir daha sübut edir ki, Məhəmməd ﷺ özünə nazil olanları öz iradəsi ilə öz istəyinə uyğun seçmirdi; o, vəhyi sadəcə qəbul edir və ona necə çatdırılıbsa, o şəkildə də insanlara bəyan edirdi. Xülasə, bu Quran, Allahın özündən əvvəlki

peyğəmbərlərə vəhy etdiyi kimi, Məhəmməd peyğəmbərə ﷺ də nazil etdiyi bir vəhydir. Məhəmmədin ﷺ bu vəhydəki tək rolu onu qəbul etmək və olduğu kimi insanlara çatdırmaqdan ibarət idi: "**Bu Quran Allahdan başqası tərəfindən uydurulmuş bir kitab deyildir. Lakin o, özündən əvvəlkiləri (Tövratı, İncili) təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş və heç bir şəkk-şübhə olmayan hökmlərin (halal-haramın) təfərrüatlı izahıdır**" *(Yunus surəsi, 37)*. Şübhəsiz ki, Quran Məhəmmədin ﷺ özündən gəlmiş bir kəlam deyil, əksinə, Məhəmmədə ﷺ gəlmiş bir kəlamdır. O, Peyğəmbərin ﷺ qəlbindən çıxmamış, əksinə, onun qəlbinə Allah tərəfindən feyz edilmişdir.

# QURANIN QORUNMASI

Uca Allah Qurani Kərimin qorunacağını qəti bir şəkildə vəd etmiş və belə buyurmuşdur: "**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və əlbəttə, Biz də onu qoruyacağıq**" *(Hicr surəsi, 9)*. Bu ayə hələ Quranın nazil olması tamamlanmamışdan və vahid bir kitab halında toplanmamışdan əvvəl endirilmişdi. Halbuki o vaxtlar yazılan parçaların itməsi, əzbərlənən hissələrin isə unudulması təhlükəsi var idi. Lakin Quranın vədi qəti və sarsılmaz idi: bu Kitab onu nazil edən Allahın inayəti ilə mütləq qorunacaqdı.

Bu gün biz, aradan keçən uzun əsrlərə nəzər saldıqda, Allahın bu Zikri qorumaq barədə verdiyi haq vədinin şahidi oluruq. Biz bu qorunma faktında bu kitabın rəbbaniliyinə, yəni ilahi mənşəli olduğuna dəlalət edən canlı bir möcüzə görürük. Anlayırıq ki, ötən əsrlər boyu bu kitabın məruz qaldığı bütün hadisələr, ağır şərtlər, qarmaqarışıq vəziyyətlər və müxtəlif amillər, onun tək bir sözünün belə dəyişmədən, tək bir cümləsinin belə təhrif olunmadan günümüzə qədər qorunub saxlanmasını imkansız etməli idi. Əgər bəşər iradəsindən kənar, bütün o şərtlərdən, hadisələrdən və amillərdən qat-qat ucada duran bir Qüdrət bu kitabı hər növ dəyişiklikdən mühafizə etməsəydi, onu müdaxilə və təhriflərdən qorumasaydı, Quran bugünkü saflığında qala bilməzdi.

Tarix boyu müsəlmanların zəif düşdüyü, düşmənlərin isə onlara üstün gəldiyi ağır dönəmlər olmuşdur. Düşmənlər İslamı və müsəlmanları hər vəchlə sarsıtmağa çalışmışlar;

lakin nə qədər cəhd etsələr də, Quranın mətnini dəyişməyə, tək bir ləfzini belə təhrif etməyə gücləri yetməmişdir. Onlar heç də bu arzudan uzaq qalmamışlar; əksinə, əgər mümkün olsaydı, bu hədəfə çatmağa, bu istəyi gerçəkləşdirməyə hamıdan çox can atardılar. Lakin hər şeyə gücləri çatsa da, bu 'Qorunmuş Kitab'da bircə dəyişiklik belə etməyə qadir olmadılar. Bu fakt Quranın ilahi bir kitab olduğuna dair ən böyük dəlildir. Bu möhtəşəm möcüzə sübut edir ki, Quran mütləq güc və hikmət sahibi olan Allah tərəfindən nazil edilmişdir.

Allahın bu vədi Peyğəmbərin ﷺ zamanında sadəcə bir müjdə idi. Lakin bu gün – o nəhəng tarixi hadisələrin və aradan keçən uzun əsrlərin ardınca – bu vəd artıq Quranın rəbbaniliyinə dəlalət edən canlı bir möcüzədir. Elə bir möcüzə ki, onun qarşısında yalnız inadkar bir cahil mübahisə edib həqiqəti danmağa cəhd göstərər.

Uca Allah nə qədər doğru buyurmuşdur: "**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və əlbəttə, Biz də onu qoruyacağıq**" *(Hicr surəsi, 9).*

Budur, bu gün biz müxtəlif zamanlarda və müxtəlif coğrafiyalarda qələmə alınmış yüz minlərlə Quran əlyazmasına şahidlik edirik; onların arasında tək bir söz fərqi belə yoxdur. Dünyanın hər bir nöqtəsinə yayılmış milyonlarla Quran hafizi görürük ki, onlardan birinin əzbəri digərininkindən əsla fərqlənmir. Müsəlmanlar bu gün öz məscidlərində Quranı hələ də elə bir ahənglə oxuyurlar ki, bu, Peyğəmbərin ﷺ məscidində vəhy nazil olduğu ilk günlərdəki qiraətin (oxunuş tərzinin) eynisidir.

Əgər hər hansı bir nüsxədə bircə xəta olarsa, minlərlə digər nüsxə o xətanı dərhal aşkara çıxardar; əgər bir qari (Quran oxucusu) qiraətində yanlışlığa yol verərsə, milyonlarla hafiz həmin an o yanlışı düzəldər.

Halbuki kitabxanalar 'Kitabi-Müqəddəsin' (Bibliyanın) minlərlə əlyazma nüsxəsi ilə dolu olsa da, onların arasında bir-birinin eynisi olan iki nüsxəyə rast gəlmək mümkün deyil. Üstəlik, hər dəfə yeni bir əlyazma nüsxəsi kəşf edildikdə, mövcud ixtilafların və fərqliliklərin sayı daha da artır.[1]

---

[1] Doktor Sami Amirinin "Bərahin ən-nubuvvə" (Peyğəmbərlik dəlilləri) əsəri, səh. 94

# Quran surələrindən seçmələr:

**Birinci:** Fatihə surəsi.

**İkinci:** Məryəm surəsi.

**Üçüncü:** Qaf surəsi.

**Dördüncü:** İxlas surəsi.

# FATİHƏ SURƏSİ

Fatihə surəsi Quranın ilk və ən əzəmətli surəsidir. Allah elçisi ρ səhabələrindən birinə bu haqda belə demişdir: *"Sənə Qurandakı ən əzəmətli surəni öyrədəcəyəm. Bu, «Əlhəmdulillahi Rabbil-aləmin»dir (yəni Fatihə surəsidir). O, mənə bəxş edilən (namazlarda tez-tez təkrarlanan) yeddi ayə və uca Qurandır".*[1]

Deməli, Fatihə surəsi yeddi ayədən ibarətdir və bu qısalığına rəğmən, Quranın əsas məğzini özündə toplamışdır; elə buna görə də o, **"Kitabın anası"** adlandırılmışdır. O, İslam əqidəsinin xülasəsini, habelə insanlarla Xaliq arasında onların varlıq qayəsini gerçəkləşdirən sarsılmaz bir əhdi özündə ehtiva edir. Bu surə, eyni zamanda, Allahdan doğru yola hidayət etməsi, müvəffəqiyyət bəxş etməsi və Öz rizasına məzhər etməsi üçün edilən səmimi bir duadır.

Bu əzəmətli surədə Uca Allah belə buyurur:

1. **Mərhəmətli və Rəhmli Allahın adı ilə!**
2. **Həmd (şükür və tərif) olsun aləmlərin Rəbbi olan Allaha,**
3. **Mərhəmətli və Rəhmliyə,**
4. **Haqq-hesab (qiyamət) gününün mütləq sahibinə!**
5. **Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!**
6. **Bizi doğru yola yönəlt!**
7. **Nemət verdiyin kəslərin yoluna! Qəzəbə uğramışların və azmışların (yoluna) deyil!**

---

[1] Buxari, 5006

Surə Allaha həmd və şükürlə başlayır. Çünki gördüyümüz və görmədiyimiz, bildiyimiz və bilmədiyimiz bütün bu aləmləri yoxdan var edən Odur. Hər şey Onun məxluqudur; bütün kainatı – varlıq aləmini idarə edən, qoruyan və nizama salan Odur. Biz Ona həmd edir, Onu uca tuturuq; çünki bizi bu aləmdə var edən və nemətlərini bizdən əsirgəməyən Odur. O, bizi ruzi ilə təmin etdi, qorudu və lütfünə qərq etdi. Bizə düşünmək və dərk etmək qabiliyyəti (ağıl neməti), iradə azadlığı və seçim ixtiyarı verməklə bizi şərəfləndirdi. Bizə haqq və hidayət yolunu göstərdi, zəlalət və asilik yolundan bizi çəkindirdi.

Sonra (surə) bizə Onun ən uca sifətlərini – sonsuz mərhəmətini xatırladır: O, Rəhmandır – mərhəməti hər şeyi əhatə etmişdir. O, Rəhimdir – mərhəməti daimidir.

Sonra O, Özünü "**Haqq-hesab gününün sahibi**" kimi vəsf etdi. Bu, axirəti xatırladan bir bəyandır. "Din günü" – insanların mühakimə olunacağı, əməllərinin qarşılığını alacağı hesab günüdür; kim xeyir iş görübsə, xeyirlə, kim şər iş görübsə, şərlə qarşılaşacaqdır. Uca Allah məhz həmin günün mütləq sahibidir; çünki o gün heç kəs mülk və hakimiyyət iddiasında ola bilməyəcəkdir. Dünyadakı bütün keçici mülklər və səlahiyyətlər həmin gün öz sonuna çatar. İnsanlar qiyamət günü dünyaya gəldikləri kimi – ayaqyalın, çılpaq və yanlarında heç bir şey olmadan gələcəklər. O gün tək olan Allahdan başqa heç kəsin hökmranlığı qalmayacaqdır. Uca Allahın buyurduğu kimi: "**Bu gün mülk (hakimiyyət) kimindir? Tək olan, (hər şeyə qalib gələn) Qəhhar olan Allahındır!**" *(Ğafir surəsi, 16).*

Sonra surədə varlığın ən ali həqiqətinə – ibadətin yalnız Allaha məxsus olması və köməyin yalnız Ondan dilənməsi məsələsinə toxunulur. Biz ibadətimizlə ancaq Ona yönəlir, ehtiyaclarımızın həllini ancaq Ondan istəyirik; çünki O, şəriksiz tək qayəmiz, pənah apardığımız yeganə məbudumuzdur.

Daha sonra Allahdan möhtac olduğumuz şeylərin ən ucasını, ən mühümünü və ən həyati olanını diləyirik: Bizi Özünə qovuşduracaq hidayət yoluna yönəltməsini... Beləcə bu yola qədəm qoymağımızla bizi Öz nemətinə məzhər olan, rizasına layiq olan və lütfü ilə şərəflənən bəndələrin zümrəsinə daxil etsin.

Həmçinin diləyirik ki, O, bizi qorusun; qorusun ki, bu haqq yoldan sapıb özgə cığırlara düşməyək, qəzəbə düçar olmayaq. Yaxud bu yoldan azıb hidayətdən məhrum qalmayaq ki, zəlalətin çaşqınlıq bataqlığında batıb getməyək. Şübhəsiz ki, Allah dilədiyini haqq yola yönəldər.

Bu surənin mahiyyəti vahid bir ox ətrafında dövr edir: hidayət (doğru yol) diləyi! Surə əvvəlcə Allahın rububiyyətinə – aləmləri yaradan və idarə edən olmasına görə Ona həmd-səna və şükürlə başlayır, daha sonra Onun sonsuz rəhməti və mütləq hakimiyyəti kimi uca sifətlərinə mədhiyyə ilə davam edir. Daha sonra bəndə Yaradana olan ibadəti, qulluğu və tövhid inancı ilə Ona təvəssül edir ki, bu həmd, səna və təvəssüldən sonra ən ali məqsədə – Allahın bir lütfü olan hidayət istəyinə çatsın.

Bu surə həm də onu bəyan edir ki, hidayət Allahın bir lütfü, Onun sonsuz nemətləri içərisində ən ucasıdır. Məhz buna

görə də Rəbbimizə əl açıb diləyirik ki, bizi də bu nemətlə şərəfləndirdiyi, hidayət bəxş etdiyi bəndələrindən qərar versin!

Onu da bilmək lazımdır ki, hidayətə – doğru yola təkcə ağıl və zəka ilə nail olmaq mümkün deyildir; neçə-neçə zəka sahibi dərrakəli insanlar var ki, öz iti ağıllarını cinayət yolunda xərcləmişlər! Hidayət təkcə elmlə də tapılmaz; neçə-neçə alimlər görmüşük ki, öz elmlərini yer üzündə fəsad törətməyə və dağıdıcılığa vəsilə etmişlər! Dünyəvi işlərin bir çoxunda üstünlük qazanan, yaradıcılıq nümayiş etdirən neçə-neçə dahi və zəkalı insanlara rast gəlirsən ki, varlığın o böyük və taleyüklü sualları qarşısında aciz qalıb sarsılmışlar. Bax, elə buna görə də onların öz əlləri ilə düzəltdikləri bir bütə, yaxud qəlblərində böyütdükləri bir xülyaya tapındıqlarını görərsən. "**Onlar dünya həyatının görünən tərəfini bilirlər, axirətdən isə tamamilə qafildirlər**" *(Rum, 7)*.

Bu surə həm də bəyan edir ki, haqq üzərində sabit qalmağın yeganə çarəsi istiqamətdir, yəni Allahın əmrlərini yerinə yetirib, qadağan etdiyi şeylərdən çəkinmək, sözdə və əməldə Allaha qarşı səmimi və sadiq olmaq. Kim bu istiqaməti (səmimiyyəti və sadiqliyi) qoruyarsa, haqqa yönəlmiş və Allaha yetişmiş olar: "**Şübhəsiz ki, Rəbbim ədalət sahibidir, haqqa yönəldəndir!**" *(Hud, 56)*.

Hidayətdən məhrum qalmağın səbəbi isə həqiqəti bildikdən sonra ona arxa çevirmək, əməl etməməkdir. Belələri elmə sahib olsalar da, əməldən məhrum qaldıqları üçün (əməlsiz olduqları üçün) qəzəbə layiq olmuşlar. Habelə hidayətdən məhrum qalmağın digər bir səbəbi də həqiqəti öyrənməyə

səy göstərməmək, elmə arxa çevirmək və ondan bixəbər qalmağa üstünlük verməkdir. Beləcə bu növ insanlarda əməl olsa da, bu əməl elmsiz, və cəhalət üzərində olduğuna görə beləəri kor-koranə bir yolla getdikləri üçün "zəlalət" vəsfini qazanmışlar. Deməli, əməlsiz elm fayda vermədiyi kimi, elmsiz, cəhalət üzərə edilən əməl də insana heç bir fayda qazandırmaz!

Bu cür əzəmətli mənalarla zəngin bir surənin daim təkrar olunmasına çox ehtiyac var. Ona görə də hər bir müsəlman gün ərzində bu surəni namazlarında ən azı on yeddi dəfə təkrar edir. Biz bədənimizi yuya-yuya təmiz saxladığımız kimi, hidayət duasını da ruhumuz üçün eyni ehtiyacla təkrar edirik; çünki bu təkrara olan lüzum hər an qüvvədədir. İnsan vücudunun paklanması üçün bir-iki dəfə yuyunmaq kifayət etmədiyi kimi, bəşər nəfsinin çirkinlikdən arınması üçün də bir-iki dua yetərli deyildir. Əksinə, hər an Allahın hüzurunda durub Ondan hidayət diləməyə daimi ehtiyac var; zira nəfsin fironluğu və şeytanın vəsvəsələri bitib-tükənmək bilmir.[1]

[1] Bax: Məhəmməd əl-Qəzali, «ət-Təfsir əl-movdui li-suvaril-Quran» (Quran surələrinin mövzulu təfsiri) (səh. 7-9)

# MƏRYƏM SURƏSİ

Bu, Quranda bir qadın adı ilə adlandırılan yeganə surədir. Ümumiyyətlə, Quranda adı birbaşa zikr olunan yeganə qadın da məhz odur – İsa peyğəmbərin anası Məryəm. Nə Məhəmməd peyğəmbərin ρ anasının, nə zövcələrinin, nə də qızlarının adı Quranda çəkilməmişdir, lakin Məryəmin adı Quran boyunca tam otuz bir dəfə təkrar edilmişdir. Üstəlik, bütöv bir surə onun adına həsr olunaraq həyat hekayəti nəql edilmiş, digər bir surə isə Məryəmin atası İmranın adı ilə adlandırılaraq, orada anasının ona hamilə qalması və doğuşu qeyd olunmuşdur. Uca Allah buyurur: "**Həqiqətən, Allah Adəmi, Nuhu, İbrahim nəslini və İmran ailəsini aləmlər üzərində seçilmişlər etdi. Onlar bir-birindən gələn bir nəsildirlər. Allah hər şeyi eşidəndir, biləndir. Bir zamanlar İmranın zövcəsi (dua edərək) belə demişdi: «Ey Rəbbim! Bətnimdəki olanı Sənə xidmət etmək üçün nəzir etdim. Məndən qəbul elə! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, bilənsən». Onu dünyaya gətirdikdə isə – halbuki Allah onun nə doğduğunu daha yaxşı bilirdi – dedi: «Ey Rəbbim! Mən qız doğdum. Axı oğlan qız kimi deyil (onun görəcəyi xidmət fərqlidir). Mən onun adını Məryəm qoydum. Onu və soyunu qovulmuş şeytandan Sənə tapşırıram (Sənin himayənə verirəm)». Beləcə, Rəbbi onu xoş bir rza ilə qəbul etdi, onu gözəl bir bitki kimi boya-başa çatdırdı və Zəkəriyyanı ona himayəçi təyin etdi. Zəkəriyya hər dəfə onun yanına – ibadətgaha (mehraba) girdikdə, orada bir ruzi görərdi. O: «Ey Məryəm! Bu sənin üçün haradandır?» – deyə soruşduqda, Məryəm: «Bu,**

**Allah qatındandır. Şübhəsiz ki, Allah dilədiyi kimsəyə hesabsız ruzi bəxş edər» – deyə cavab verdi"** *(Ali-İmran, 33-37)*. Bütün bunlar Məryəmin şərəfi, sadiqliyi, Allaha olan sonsuz ibadəti və sarsılmaz yəqinliyi (inamı) sayəsindədir. Hətta Allah bizə mələklərin onunla danışdığını belə xəbər vermişdir: "**Bir zamanlar mələklər demişdilər: «Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, səni tərtəmiz etdi və səni aləmlərin qadınlarından üstün tutub seçdi»**" *(Ali-İmran, 42)*. O, elə bir pak və bakirə xanımdır ki, Allah heç bir ata vəsiləsi olmadan, yalnız Özünün 'Ol!' əmri ilə yaradacağı bir elçinin (İsanın) möcüzəvi məkanı olması üçün məhz onun bətnini seçmişdir.

Məryəmlə bağlı məsələnin əhəmiyyəti və böyüklüyü ondadır ki, o da, oğlu da hər kəs kimi bir bəşər övladı idilər; onlar insanları yalnız tək olan Allaha ibadətə səsləyir, əsla ilahlıq iddiasına düşmür və özlərinə tapınmağa çağırmırdılar. Necə ki, Uca Allah buyurur: "**Məryəm oğlu Məsih ancaq bir elçidir; ondan əvvəl də neçə-neçə elçilər gəlib-getmişdir. Onun anası isə çox sadiq (iffətli) bir qadın idi. Onların hər ikisi də (digər insanlar kimi) yemək yeyərdilər. Bax gör, Biz ayələri onlara necə bəyan edirik, sonra da bir gör, onlar haqdan necə üz döndərirlər!**" *(Maidə, 75)*.

Daha sonra Məryəm surəsində qiyamətin bəzi dəhşətli mənzərələri, axirətdə kafirlərin və möminlərin qarşılaşacağı aqibət (cəza və mükafat) təsvir olunur. Həmçinin, yenidən dirilməni inkar edənlərin gətirdikləri bəhanələr zikr edilir və onlara sarsıdıcı cavablar verilir.

Ardınca surədə bütpərəstliyin müxtəlif halları, xəyali ilahlara tapınma və Allaha şərik qoşma şiddətlə qınanır. Bu iddiaların ən çirkini və ən böyüyü isə Allaha övlad nisbət edilməsidir. Halbuki Allah-Təala elə uca, elə əzəmətlidir ki, Ona övlad götürmək əsla yaraşmaz; O, yoldaşının, yaxud övladının olmasından tamamilə münəzzəhdir (ehtiyacsızdır). Necə ki, Uca Xaliq belə demişdir: "**Göyləri və yeri yoxdan var edən Odur! Onun zövcəsi olmadığı halda, övladı necə ola bilər?! Hər şeyi O yaratmışdır və O, hər şeyi biləndir!**"*(Ənam, 101).*

Bu surəyə hakim olan əsas məna ilahi rəhmətin bəyanıdır. Elə surənin özü də Allahın Öz qulu Zəkəriyyaya olan rəhmətini qeyd etməsi ilə başlayır. «Fatihə» surəsində Allahın rəhmət sifəti ön plana çəkildiyi kimi, «Məryəm» surəsində də dönə-dönə vurğulanır. Hətta qorxu və xəbərdarlıq məqamında belə məhz «Rəhman» ismi qeyd edilir: "**Həqiqətən, mən Rəhman tərəfindən sənə bir əzabın toxunmasından qorxuram!**" *(Məryəm, 45)*. Bütün bunlar isə Allahın insanlar üzərində hakim olan və hər tərəfi əhatə edən o sonsuz, əzəmətli rəhmətini bəyan etmək üçündür.

**Məryəm surəsi (1-58)**

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

1. **Kəf, Hə, Yə, Ayn, Sad.**
2. **Bu, Rəbbinin Öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır.**
3. **O zaman ki, o, Rəbbinə gizlicə (pıçıldayaraq) dua etmişdi.**
4. **Demişdi: “Ey Rəbbim! Artıq sümüklərim boşalmış, başım qocalıqdan ağappaq ağarmışdır. Ey Rəbbim,**

mən Sənə etdiyim dualar sayəsində heç vaxt bədbəxt olmamışam.

5. Mən özümdən sonra gələcək varislərdən – qohumlarımdan (dinə etinasız yanaşacaqlarından) qorxuram. Zövcəm də qısırdır. Mənə Öz qatından elə bir varis bəxş et ki,
6. həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim, onu bəyənilən (razı qalınan) kəslərdən et!"
7. (Allah buyurdu:) "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğul ilə müjdələyirik. Biz bundan əvvəl ona heç kəsi adaş etməmişik (bu adı ondan öncə kimsəyə verməmişik)".
8. O dedi: "Ey Rəbbim! Zövcəm qısır, mən isə qocalığın son həddinə çatmışkən mənim necə oğlum ola bilər?"
9. (Mələk) dedi: "Elədir, lakin Rəbbin buyurdu: «Bu, Mənim üçün çox asandır. Necə ki, daha öncə sənin özünü də sən hələ heç bir şey deyilkən yaratmışdım»".
10. O dedi: "Ey Rəbbim, (bunun üçün) mənə bir nişanə ver". Buyurdu: "Sənin nişanən budur ki, sağlam olduğun halda sən üç gecə insanlarla danışa bilməyəcəksən".
11. Beləcə, o, mehrabdan (ibadətgahdan) öz qövmünün qarşısına çıxdı və onlara (işarə ilə): "Səhər-axşam Allahı təsbih edin (zikrlə Onu yad edərək şəninə təriflər deyin)!" – deyə başa saldı.

12. (Yəhyaya da belə vəhy etdik): “Ey Yəhya! Kitabdan (Tövratdan) bərk yapış!” Biz hələ uşaq ikən ona hikmət bəxş etdik.
13. Həmçinin Öz qatımızdan ona bir şəfqət və paklıq bəxş etdik. O, təqvalı bir bəndə idi.
14. Ata-anasına qarşı itaətkar idi; lovğa və asi deyildi.
15. Doğulduğu gün də, öləcəyi gün də, yenidən diriləcəyi gün də ona salam olsun!
16. Kitabda Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb şərq tərəfdə bir yerə çəkilmişdi.
17. (ibadət vaxtı təkliyə çəkilsin deyə) onlarla öz arasında pərdə çəkmişdi. Biz Öz Ruhumuzu (Cəbrayılı) onun yanına göndərdik. O, Məryəmə tam bir insan surətində göründü.
18. Məryəm dedi: “Mən səndən Rəhmana sığınıram! Əgər Allahdan qorxan birisənsə, mənə toxunma!”
19. Cəbrayıl dedi: “Mən yalnız Rəbbinin elçisiyəm ki, sənə pak bir oğul bəxş edim”.
20. Məryəm dedi: “Mənə bir insan əli dəymədiyi və özüm də iffətsiz olmadığım halda mənim necə övladım ola bilər?”
21. (Mələk) dedi: “Elədir, lakin Rəbbin buyurdu: «Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu, artıq hökmü verilmiş bir işdir»”.
22. Beləliklə, Məryəm uşağa hamilə qaldı və bətnindəki ilə birgə uzaq bir yerə çəkildi.

23. Doğuş sancısı onu bir xurma ağacının gövdəsinə söykənməyə məcbur etdi. O dedi: "Kaş ki, bundan əvvəl öləydim və tamamilə unudulub gedəydim!"
24. (Cəbrayıl) aşağı tərəfindən ona səsləndi: "Kədərlənmə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı.
25. Xurma ağacının gövdəsini özünə tərəf silkələ, üstünə təzə, yetişmiş xurmalar tökülsün.
26. Ye, iç, gözün aydın olsun! Əgər bir insan görsən, belə de: «Mən Rəhman üçün oruc (susmaq orucu) nəzir etmişəm. Odur ki, bu gün heç bir insanla danışmayacağam»".
27. Məryəm uşağı qucağına alıb öz qövmünün yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən çox çirkin bir iş gördün!
28. Ey Harunun bacısı! Atan pis kişi, anan da iffətsiz bir qadın deyildi".
29. Məryəm işarə ilə uşağı göstərdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə biz necə danışaq?"
30. Körpə dil açıb dedi: "Mən, şübhəsiz ki, Allahın quluyam. O, mənə kitab verdi və məni peyğəmbər etdi.
31. Harada oluramsa olum, məni mübarək etdi və mənə sağ olduğum müddətcə namaz qılıb zəkat verməyi tapşırdı.
32. Həm də məni anama qarşı qayğıkeş etdi; məni lovğa və bədbəxt biri etmədi.
33. Doğulduğum gün də, öləcəyim gün də, yenidən diriləcəyim gün də mənə salam olsun!"

34. Haqqında şübhəyə düşdükləri Məryəm oğlu İsa — haqq söz budur!
35. Allahın Özünə övlad götürməsi Ona yaraşmaz. O, pakdır, müqəddəsdir! O, bir işin olmasını istədikdə, ona yalnız “Ol!” deyər, o da həmən olar.
36. (İsa dedi:) “Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə yalnız Ona ibadət edin. Doğru yol budur!”
37. Lakin (yəhudi və xristian) firqələr öz aralarında ixtilafa düşdülər. Böyük günün (qiyamətin) dəhşətini görəcəkləri zaman vay o kafirlərin halına!
38. Onlar Bizim hüzurumuza gələcəkləri gün necə də yaxşı eşidib, yaxşı görəcəklər! Lakin zalımlar bu gün (dünyada) açıq-aydın azğınlıq içindədirlər.
39. (Et Rəsulum!) İşin bitmiş olacağı (hökmün veriləcəyi) həmin o peşmançılıq günü ilə onları qorxut! Onlar hələ də qəflət içindədirlər və iman gətirmirlər.
40. Şübhəsiz ki, yer üzünə və onun üstündəkilərə Biz varis olacağıq. Onlar yalnız Bizim hüzurumuza qaytarılacaqlar.
41. Kitabda İbrahimi də yad et. Həqiqətən, o, tamamilə sadiq bir kəs — bir peyğəmbər idi.
42. Bir zaman o, atasına demişdi: “Atacan! Eşitməyən, görməyən və sənə heç bir faydası olmayan şeylərə niyə ibadət edirsən?
43. Atacan! Həqiqətən, mənə, sənə gəlməyən bir elm gəlmişdir. Ardımca gəl ki, səni doğru yola yönəldim.

44. Atacan! Şeytana ibadət etmə! Şübhəsiz ki, şeytan Rəhmana asi olmuşdur.
45. Atacan! Doğrusu, mən Rəhman tərəfindən sənə bir əzabın toxunacağından və beləcə, şeytana yoldaş olacağından qorxuram".
46. (Atası) dedi: "Ey İbrahim! Sən mənim ilahlarımdan üzmü döndərirsən? Əgər (buna) son qoymasan, səni mütləq daşqalaq edərəm. Uzun müddət məndən uzaqlaş!"
47. (İbrahim) dedi: "Sənə salam olsun! Mən Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O, mənə qarşı çox lütfkar (mehriban) dır.
48. Mən sizi və Allahdan başqa yalvardıqlarınızı tərk edirəm. Mən yalnız öz Rəbbimə dua edirəm. Ola bilsin ki, Rəbbimə etdiyim dua sayəsində bədbəxt (məhrum) olmayım".
49. İbrahim onları və Allahdan başqa ibadət etdiklərini tərk etdikdə, Biz ona İshaqı və Yaqubu bəxş etdik və hər birini peyğəmbər etdik.
50. Onlara Öz mərhəmətimizdən bəxş etdik və onlar üçün (nəsillər arasında) uca bir rəğbət və doğru sözlülük (xoş ad) qismət etdik.
51. Kitabda Musanı da yad et. Həqiqətən, o, seçilmiş bir bəndə idi; bir elçi, bir peyğəmbər idi.
52. Biz ona dağın sağ tərəfindən səsləndik və onu gizli bir söhbət üçün Özümüzə yaxınlaşdırdıq.
53. Öz mərhəmətimizdən ona qardaşı Harunu da bir peyğəmbər olaraq bəxş etdik.

**54. Kitabda İsmayılı da yad et. Həqiqətən, o, vədinə sadiq idi; bir elçi, bir peyğəmbər idi.**
**55. O, öz ailəsinə namaz qılmağı və zəkat verməyi əmr edərdi. O, Rəbbinin yanında bəyənilən (Rəbbinin razılığını qazanmış) bir kəs idi.**
**56. Kitabda İdrisi də yad et. Həqiqətən, o, tamamilə sadiq bir kəs — bir peyğəmbər idi.**
**57. Biz onu uca bir məqama yüksəltdik.**
**58. Onlar Allahın nemət verdiyi peyğəmbərlərdən — Adəmin və Nuhla birlikdə gəmidə daşıdıqlarımızın nəslindən, İbrahim və İsrail (Yaqub) nəslindən seçib doğru yola yönəltdiyimiz kəslərdəndir. Onlara Rəhmanın ayələri oxunduğu zaman ağlayaraq səcdəyə qapanardılar.**

Surə əvvəldə Yəhyanın doğulmasından bəhs edir. Bu, İsanın dünyaya gəlişindən öncə baş verən və sanki ona zəmin hazırlayan bir hadisə idi. Belə ki, Yəhyanın doğulması öz-özlüyündə bir möcüzə idi; ata artıq yaşlanıb əldən düşmüş bir qoca, ana isə qısır bir qarı idi. Elə isə, bu qocaya yenidən can verən, o qısır qadını övlad sahibi ola biləcək hala gətirən və onlara övlad payı bəxş edən kim idi?!

Daha sonra surə Məryəm oğlu İsanın doğulmasından bəhs edərək bu kərim peyğəmbərin dünyaya gəlişindəki ilahi möcüzəni dilə gətirir. Allah üçün qeyri-mümkün olan heç nə yoxdur; O, heç bir bəşər əli dəyməmiş bakirə bir qadına övlad bəxş edər. Çünki səbəblərin yaradıcısı olan Allah Özü həmin səbəblərə məhkum deyildir.

Allah İsanı atasız xəlq etmişdir; necə ki, ondan əvvəl Adəmi də atasız yaratmışdı. Uca Allah buyurduğu kimi:

**"Həqiqətən, Allah yanında İsanın misalı (atasız yaradılması), Adəmin misalı kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona "Ol!" – dedi, o da oldu"** *(Ali-İmran, 59).*

Bu surə Zəkəriyya və oğlu Yəhyanın, sonra isə Məryəm və oğlu İsanın qissəsi ilə başladı. Daha sonra İbrahim peyğəmbərin öz atasını tək olan Allaha ibadətə çağırmasından, ona heç bir faydası olmayan bütlərdən uzaq durması üçün etdiyi xəbərdarlıqdan bəhs edildi. İbrahimin atasını haqqa dəvət edərkən göstərdiyi o mülayimlik, nəzakət və nəciblik necə də heyranedicidir! O, atasını böyük bir sevgi və şəfqətlə: "**Atacan, atacan...**" deyə çağırırdı. Onu Allahın əzabı ilə qorxutduqda belə, bu əzabı Allahın **«Rəhman»** adı ilə yanaşı xatırlatdı və belə dedi: "**Atacan! Doğrusu, mən Rəhman tərəfindən sənə bir əzabın toxunacağından qorxuram**" *(Məryəm, 45).* Yəni, Allah Rəhmandır, O bəndələrinə qarşı mərhəmətlidir; elə isə sən niyə Onun rəhmətindən üz döndərib özünü Onun əzabına hədəf edirsən?!

Atası bütpərəstlikdə israr etdikdə, İbrahim böyük bir nəzakətlə ondan uzaqlaşdı və belə dedi: "**Sənə salam olsun! Mən Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm**" *(Məryəm, 47).* Beləliklə, İbrahimin ilk dəvəti öz atasına – ona ən yaxın olan insana ünvanlanmışdı.

Sonra Uca Allah İsmayıl, İshaq, Yaqub, Musa, Harun, İdris, Adəm və Nuh kimi bəzi peyğəmbərlərin fəzilətlərini zikr etdi. Bu, Məhəmməd peyğəmbərin ﷺ dəvətinin özündən əvvəlki peyğəmbərlərin yolu ilə eyni olduğunu və onun risalətinin bəşəriyyət üçün gözlənilməz, yeni və yad bir hadisə deyil, əksinə, özündən əvvəlki elçilərin dəvət

zəncirinin son halqası olduğunu təsdiq etmək üçündür. Necə ki, Uca Allah buyurur: "**De: «Mən peyğəmbərlərin birincisi (yeni bir şey gətirəni) deyiləm. Mənə və sizə nə üz verəcəyini də bilmirəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Mən ancaq (sizi) açıq-aşkar xəbərdar edən biriyəm»**" *(Əhqaf, 9).*

Sonra Uca Allah surənin davamında belə buyurur:

59. **Lakin onlardan sonra elə bir nəsil gəldi ki, namazı tərk etdilər və nəfslərinin istəklərinə uydular. Onlar (bu azğınlıqlarının cəzası olaraq) ziyana (yaxud "Ğay"a, yəni Cəhənnəmdəki ən şiddətli şər dərəsinə) uğrayacaqlar .**
60. **Tövbə edib iman gətirən və saleh əməl işləyənlər isə müstəsnadır. Məhz onlar Cənnətə daxil olacaq və zərrə qədər də haqsızlığa uğramayacaqlar.**
61. **O Cənnət ki, Rəhmanın Öz bəndələrinə, görmədikləri halda, vəd etdiyi Ədn bağlarıdır. Şübhəsiz ki, Onun vədi mütləq yerinə yetəndir.**
62. **Onlar orada boş və mənasız sözlər deyil, ancaq "Salam!" eşidəcəklər. Orada onların ruzisi səhər-axşam hazır olacaqdır.**
63. **Bəndələrimizdən təqva sahibi olanları mirasçı edəcəyimiz Cənnət, bax, budur!**
64. **(Mələklər dedi:) "Biz mələklər ancaq Rəbbinin əmri ilə nazil olarıq. Önümüzdə, arxamızda və bunların arasında nə varsa, hər şey yalnız Ona məxsusdur. Sənin Rəbbin heç nəyi unudan deyildir!"**
65. **O, göylərin, yerin və onların arasında olan hər şeyin Rəbbidir! Elə isə yalnız Ona ibadət et və bu**

**ibadətdə səbirli (mətanətli) ol! Heç Ona bir adaş (bənzər, tay) tanıyırsanmı?**

Allah peyğəmbərlərin o pak və təmiz hallarını yad etdikdən sonra, onlardan sonra gələn, əməllərini korlayan, Allaha ibadətdən üz döndərib nəfslərinin istəyinə uyan kəslərdən bəhs etdi və bizlərə onların (dəhşətli) aqibətini xatırlatdı. Eyni zamanda, günahlarından əl çəkib tövbə edən və əməllərini gözəlləşdirənlər üçün Cənnətdə nələrin hazırlandığını bəyan etdi. Sonra Uca Allah belə buyurur:

66. **İnsan: "Mən öldükdən sonra doğrudanmı (dirildilib qəbirdən) sağ çıxarılacağam?" – deyə soruşar.**
67. **Məgər insan daha öncə heç bir şey deyilkən, Bizim onu yoxdan yaratdığımızı xatırlamırmı?**
68. **Rəbbinə and olsun ki, Biz onları şeytanlarla birlikdə mütləq (məhşərə) toplayacaq, sonra onları diz çökmüş halda Cəhənnəmin ətrafına gətirəcəyik.**
69. **Sonra hər bir firqədən Rəhmana qarşı ən çox asi olanını ayırıb çıxaracağıq.**
70. **Şübhəsiz ki, oraya atılmağa (yanmağa) daha çox layiq olanları Biz hamıdan yaxşı tanıyırıq.**
71. **İçinizdən elə bir kəs olmaz ki, oraya uğramasın. Bu, Rəbbinin mütləq yerinə yetirəcəyi qəti bir hökmdür.**
72. **Sonra Biz təqva sahiblərini (Allahdan qorxanları) xilas edəcək, zalımları isə orada diz çökmüş halda buraxacağıq.**
73. **Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman, kafirlər möminlərə: "Bu iki dəstədən hansının**

məqamı daha üstün, məclisi daha gözəldir?" – dedilər.

74. Biz onlardan əvvəl var-dövlət və zahiri görünüşcə (ehtişamca) onlardan qat-qat üstün olan neçə-neçə nəsilləri həlak etdik.

75. De: "Hər kim azğınlıq içindədirsə, qoy Rəhman ona uzun müddət möhlət versin! Nəhayət, özlərinə vəd olunanı — ya bu dünyadakı əzabı, ya da qiyaməti gördükləri zaman, kimin məqamının daha pis və tərəfdarlarının daha zəif olduğunu biləcəklər!"

76. Allah doğru yolda olanların hidayətini (haqqa bağlılığını) artırar. Əbədi qalan saleh əməllər isə Rəbbinin yanında həm savab baxımından daha xeyirli, həm də aqibətcə daha gözəldir.

77. Ayələrimizi inkar edib: "Mənə mütləq mal-dövlət və övlad veriləcək!" – deyən kəsi gördünmü?

78. Olmaya, o, qeybdən xəbərdar olub, yoxsa Rəhmandan bir əhdmi alıb?

79. Əsla! Biz onun dediklərini yazacaq və əzabını qat-qat artıracağıq.

80. Onun dediyi şeylər (var-dövlət) Bizə qalacaq və o, Bizim hüzurumuza tək-tənha gələcəkdir.

81. Onlar özlərinə dayaq (izzət və qüdrət qaynağı) olsunlar deyə bütləri Allahdan başqa ilahlar qəbul etdilər.

82. Xeyr! Qiyamət günü o bütlər onların ibadətlərini inkar edəcək və onlara düşmən kəsiləcəklər.

83. Məgər kafirlərin üstünə onları (vəsvəsə ilə günaha) sövq edən şeytanları göndərdiyimizi görmürsənmi?

**84. Odur ki, onlar üçün (əzabın gəlməsinə) tələsmə. Biz onların günlərini bir-bir sayırıq.**
**85. O gün Biz təqva sahiblərini Rəhmanın hüzuruna hörmətli nümayəndələr (qonaqlar) kimi toplayarıq.**
**86. Günahkarları isə susamış halda Cəhənnəmə sürükləyərik.**
**87. Rəhmanın yanında əhd alanlar (Onun izn verdiyi kəslər) istisna olmaqla, heç kəs şəfaət etməyə (və ya şəfaət olunmağa) malik olmayacaqdır.**

Burada Allah ölümdən sonra yenidən dirilməyi inkar edən kafirlərin bəzi iddialarını diqqətə çatdırır. Onların içində elələri var ki, öldükdən sonra yenidən həyata qayıdacaqlarını qeyri-mümkün hesab edirlər. Allah isə belə bir kimsəyə xatırladır ki, onu ilk dəfə yoxdan yaradan Qüdrət, öləndən sonra ona yenidən can verməyə də qadirdir.

Həmçinin kafirlər arasında elələri də var ki, yenidən dirilməni uzaq bir ehtimal sayıb inkar edərək: "Əgər qiyamət günü diriləcəmsə, mütləqdir ki, övladlarım və sərvətim də mənimlə olacaq" – deyirlər. Lakin o insan dərk etmir ki, bu dünyaya tək-tənha gəldiyi kimi, qiyamət günü də Allahın hüzuruna tək-tənha gələcəkdir. Bu dünyaya yalınayaq və çılpaq gəldiyi kimi, qiyamət günü də Allahın hüzuruna məhz eləcə – yalınayaq və çılpaq gətiriləcəkdir.

Sonra Allah həmin o təkzib edənlərin aqibətini, axirətdəki cəzalarını və onlar üçün nələrin hazırlandığını bəyan etdi. Bununla yanaşı, təqva sahibləri üçün hazırlanan mükafatları da zikr etdi. Bu, axirətdəki əbədi qarşılıqdır: ya sonsuz və

tükənməz bir nemət (Cənnət), ya da şiddətli və ağrılı bir əzab (Cəhənnəm)! Sonra Uca Allah belə buyurur:

**88. Onlar (kafirlər): "Rəhman Özünə övlad götürdü!" – dedilər.**

**89. (Ey bunu deyənlər!) And olsun ki, siz çox çirkin bir iddia ortaya atdınız!**

**90. Bu söz səbəbi ilə az qala göylər parçalana, yer yarıla və dağlar sarsılaraq yerlə yeksan olub dağıla!**

**91. Rəhmana övlad isnad etdilər deyə (təbiət bu nifrəti duyar).**

**92. Halbuki Rəhmana Özünə övlad götürmək əsla yaraşmaz!**

**93. Göylərdə və yerdə olan hər kəs Rəhmanın hüzuruna ancaq bir bəndə (qul) olaraq gələcəkdir.**

**94. (Allah) onların hamısını (əzəli elmi ilə) hesablamış və onları tək-tək saymışdır.**

**95. Onların hər biri qiyamət günü Onun hüzuruna tək-tənha gələcəkdir.**

**96. İman gətirib saleh əməl işləyənlər üçün isə Rəhman (qəlblərdə) bir sevgi yaradacaqdır.**

**97. (Ey Məhəmməd!) Biz bunu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla təqva sahiblərinə müjdə verəsən və inadkar (haqqa qarşı düşmənçilik edən) bir qövmü qorxudasan.**

**98. Biz onlardan əvvəl də neçə-neçə nəsilləri həlak etdik. İndi onlardan kimisə hiss edirsənmi, yaxud onlardan bircə pıçıltı belə eşidirsənmi?**

Sonra surə elə başlanğıcındakı kimi, Allahın Özünə övlad götürməsi iddiasına qarşı kəskin bir etiraz və inkarla

tamamlanır. Bəyan edilir ki, bu iddia Allahın uca şanına yaraşmayan bir naqislikdir və bütün kainat bu iftiranı nifrətlə rədd edir. İndi isə qulaq asın o ayələrə ki, sanki bir göy gurultusu kimi gurlayır və bu batil iddianı ən şiddətli şəkildə inkar edir: "**Onlar (kafirlər): "Rəhman Özünə övlad götürdü!" – dedilər. (Ey bunu deyənlər!) And olsun ki, siz çox çirkin bir iddia ortaya atdınız! Bu söz səbəbi ilə az qala göylər parçalana, yer yarıla və dağlar sarsılaraq yerlə yeksan olub dağıla! Rəhmana övlad isnad etdilər deyə (təbiət bu nifrəti duyar)**" *(Məryəm, 88-91).* Allahın Özünə övlad götürməsi iddiası çox çirkin və əsassız bir iddiadır. Bu cür çirkin bir iddianın Uca Allaha nisbət edilməsi əsla qəbulolunmazdır. Çünki göylərdə və yerdə olan hər şey, bütün kainatlar və aləmlər, onsuzda, Allahın məxluqudur (yaratdığıdır) və Ona məxsusdur; Onun əmrinə ram edilmiş, Onun hökmü və nizamı ilə idarə olunmaqdadır. Bu kainatda Onun heç bir ortağı yoxdur və Uca Allahın övladı olması qeyri-mümkündür. Necə ki, Allah Təala belə buyurmuşdur: "**Onun zövcəsi (həyat yoldaşı) olmadığı halda, övladı necə ola bilər?! Hər şeyi O yaratmışdır və O, hər şeyi Biləndir!**" *(əl-Ənam, 101)* Digər ayədə isə belə deyilir: "**Allah Özünə heç bir övlad götürməmişdir və Onunla bərabər başqa bir ilah da yoxdur. Əgər belə olsaydı, hər bir ilah öz yaratdıqlarını götürüb bir kənara çəkilər və onların bir qismi digərinə üstün gəlməyə (qələbə çalmağa) çalışardı. Allah onların (kafirlərin) Ona aid etdikləri vəsflərdən uzaqdır (münəzzəhdir)!**" *(əl-Muminun, 91)* Bu surədə diqqətimizi çəkən məqamlardan biri də Allahın «ər-Rəhman» isminin 16 dəfə təkrarlanmasıdır. Surə Allahın Öz

bəndəsi Zəkəriyaya olan rəhmətini zikr etməklə başlayır, möminlərə olan rəhməti və sevgisi ilə tamamlanır. Bu, insanlara həyatlarını bürüyən və hər an onlarla bərabər olan ilahi rəhməti xatırlatmaq üçündür. Əgər Allahın rəhməti olmasaydı, nə həyat davam edərdi, nə də yaşamağın bir dadı-duzu olardı. İnsan Allahın rəhmətini hər nəfəs alışında, udduğu hər loğmada, içdiyi hər qurtum suda, bədəninin sağlığında, ağlının kəskinliyində və üzərinə yağan saysız-hesabsız nemətlərdə hiss edəcəkdir. Necə ki, Allah Təala buyurmuşdur: "**Sahib olduğunuz hər bir nemət Allahdandır!**" *(ən-Nəhl, 53)* Bu surədə Allahın «ər-Rəhman» isminin dəfələrlə təkrar edilməsi bizim üçün bir təsəlli və qəlb rahatlığıdır. Bu təkrar ona görədir ki, biz dünyada bizi hər tərəfdən bürüyən ilahi rəhməti ruhumuzda hiss edək və Rəbbimizə dönəcəyimiz gün Onun o ən böyük rəhmətinə nail olmaq üçün çalışaq. Zira Cənnət – Allahın rəhmətinin əbədi qərar tutduğu məkandır.

# QAF SURƏSİ

Bu surə dünya həyatından sonrakı həyatdan – ölümdən və ölüm ötəsi hallardan bəhs edən, axirət aləminə doğru olan yolçuluğu bizlərə təsvir edən bir surədir.

Surənin əvvəlində yenidən dirilişi inkar edənlərin heyrəti və bu həqiqətə qarşı çıxmaları təsvir olunur. Ardınca isə dirilişə dair gözlə görülən aşkar dəlillər gətirilir və onlara özlərindən əvvəlki inkarçıların acı aqibəti xatırladılır.

Daha sonra surə başqa bir mənzərəyə – insanın yaradılışına, onun əməllərinin, sözlərinin və qəlbindən keçənlərin tam şəkildə əhatə olunmasına və nəzarətdə saxlanılmasına keçid edir. Ardınca isə ayrılıq anı, insanın hər zaman qafil qaldığı ölüm və bundan sonra axirətdə yaşanacaq hesab və cəza səhnələri vəsf olunur.

Sonra surə keçmiş dövrlərdə həlak edilmiş inkarçıların aqibətini xatırlatmağa qayıdır. Surə dirilişin zikri və isbatı ilə başladığı kimi, sonda da axirət gününə – qəbirlərdən çıxış, məhşərə tələsmə, hesab və cəza gününə hazırlığın vacibliyini xatırladaraq tamamlanır.

Beləliklə, bu surə, əvvəlindən sonuna qədər insana axirəti xatırladan və təsiri olduqca güclü bir surəsidir. Belə ki, bu surə oxunduqca və ayələri üzərində tədəbbür edildikcə insanın ruhuna hakim kəsilir, nəfsinin dərinliklərində bir qorxu yaradır və insanı axirətə qarşı qəflət yuxusundan oyadır.

**Qaf surəsi (1-15)**

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

1. Qaf. Şanlı Qurana and olsun!
2. Xeyr, onlar öz aralarından bir xəbərdar edənin gəlməsinə təəccübləndilər və kafirlər dedilər: "Bu, çox qəribə bir şeydir!
3. Məgər biz öldükdən və torpağa qarışdıqdan sonra yenidən diriləcəyik? Bu, gerçəkləşməsi uzaq bir qayıdışdır!"
4. Şübhəsiz ki, yerin onlardan nəyi alıb əskiltdiyini Biz bilirik. Yanımızda hər şeyi qoruyan (yadda saxlayan) bir kitab vardır.
5. Xeyr, haqq onlara gəldiyi zaman onu yalan hesab etdilər; indi onlar çaşqın bir vəziyyətdədirlər.
6. Məgər onlar başlarının üstündəki göyə baxmadılarmı ki, Biz onu necə yaratdıq, necə bəzədik? Onun heç bir çatlağı da yoxdur!
7. Yeri də döşədik, orada möhkəm dağlar yerləşdirdik və orada hər növ gözəl bitkilər bitirdik.
8. (Bütün bunları) Allaha tərəf yönələn hər bir bəndə üçün ibrət və öyüd-nəsihət olsun deyə etdik.
9. Göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik.
10. Eləcə də meyvələri salxım-salxım düzülmüş hündür xurma ağacları yetişdirdik.
11. Bəndələrə ruzi olsun deyə belə etdik! Biz onunla (su ilə) ölü bir məmləkəti dirilttdik. Dirilib qəbirdən çıxmaq da belədir!
12. Onlardan əvvəl Nuh qövmü, Rəss əhli və Səmud tayfası da (peğəmbərləri) yalançı saydı.
13. Ad, Firon və Lut qövmü də həmçinin.

14. **Habelə Əykə əhli və Tübbə qövmü də. Onların hamısı peyğəmbərləri təkzib etdilər və (onlar haqda) Mənim təhdidim gerçəkləşdi.**
15. **Məgər Biz ilk yaradılışdan yorulduqmu? Xeyr, onlar yeni bir yaradılış (yenidən dirilmə) barəsində şəkk-şübhə içindədirlər.**

Surənin girişində diqqət mərkəzində olan məqam dirilişi inkar edənlərlə aparılan dialoqdur; belə ki, onlar torpağa qarışıb yox olduqdan sonra yenidən həyata qayıdacaqlarını imkansız sayırlar. Surə onlara ölümün ardından yenidən dirilməyə və axirət həyatına dəlalət edən, hər kəsin aşkarca müşahidə edə biləcəyi əzəmətli dəlillər təqdim edir.

**Birincisi:** Onların nəzərlərini bu nəhəng və əzəmətli yaradılışa – səmanın xilqətinə yönəltməkdir; onlar göyün hüdudsuz genişliyini, seyr edən ulduzlarını görürlər. Eləcə də yerin ucu-bucağı görünməyən ənginliyini, dağların sarsılmazlığını və ağacların gözoxşayan gözəlliyini müşahidə edirlər. Bu nəhəng və heyrətamiz kainatın Xaliqi olan bir Qüdrət üçün, öldükdən sonra o kiçik və aciz insanı yenidən həyata qaytarmaq, onu ikinci dəfə var etmək heç bir çətinlik törətməz. "**Əlbəttə (edə bilər)! O, hər şeyi yaradan və biləndir!**" *(Yasin, 81).* Allah bu həqiqəti başqa bir ayədə də zikr edərək belə buyurmuşdur: "**Göylərin və yerin yaradılması, insanların yaradılmasından daha böyük bir işdir. Lakin insanların çoxu (bunu) bilməzlər**" *(Ğafir, 57).*

**İkincisi:** Ölü torpağın su ilə dirildilməsidir. Belə ki, torpağın üzərinə su endikdə, o, ölümündən sonra yenidən həyata qayıdır, cansızlığından sonra hərəkətə gəlir, qabarır; quraq və qupquru olduğu halda, ağaclarını, meyvələrini,

çiçəklərini və gözəlliklərini üzə çıxarır. Bu, insanların hər zaman gördüyü və izlədiyi, daim təkrarlanan bir mənzərədir. Bu mənzərə, ölümün ardından həyatın geri dönməsidir ki, eynilə insanların öldükdən sonra yenidən dirildilməsinə bənzəyir. Uca Allah bu barədə başqa bir ayədə belə buyurmuşdur: "**Onun ayələrindən biri də budur ki, sən torpağı qupquru görürsən. Biz onun üzərinə su endirdikdə isə o, hərəkətə gəlib qabarır (canlanır). Şübhəsiz ki, onu dirildən, ölüləri də mütləq dirildəcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir!**" *(Fussilət, 39).*

**Üçüncüsü:** İnsanı ilk dəfə yaradan Allahdır. Onu ilk dəfə yoxdan var edən Qüdrət, ölümündən sonra onu yenidən yaratmağa və həyata qaytarmağa da qadirdir. Bu həqiqət digər ayələrdə də vurğulanmışdır; onlardan biri də Uca Allahın bu kəlamıdır: "**O, özünün (ilkin) yaradılışını unudaraq Bizə bir məsəl çəkdi və dedi: «Çürümüş sümükləri kim dirildə bilər?» De ki: «Onları ilk dəfə kim yaratmışsa, O da dirildəcəkdir. O, hər bir yaradılışa (xilqətə) dərindən bələddir!»**" *(Yasin, 78-79).* Uca Allah digər bir ayədə belə buyurur: "**Odur məxluqatı ilkin olaraq yoxdan var edən, sonra isə onu yenidən dirildən. Bu (yenidən diriltmək) Onun üçün daha asandır. Göylərdə və yerdə olan ən uca sifətlər yalnız Ona məxsusdur. O, Qüdrətlidir, Hikmət sahibidir!**" *(Rum, 27).* İnsana yenidən həyat vermək, onu ilk dəfə yoxdan var etməkdən daha asandır. Bu müqayisə, sadəcə olaraq, mənanı insana yaxınlaşdırmaq və onun anlamasını təmin etmək üçündür; əslində isə bunların hər biri Allah üçün olduqca asandır. Nə yerdə, nə də göydə heç bir şey Onu aciz qoya bilməz: "**Bir**

**şeyi yaratmaq istədikdə, Onun buyruğu ona ancaq: «Ol!» deməkdir, o da dərhal olar"** *(Yasin, 82).* Bütün bunlar öldükdən sonra yenidən dirilməyə və Allaha tərəf qayıdışa dəlalət edən aşkar dəlillərdir. Sonra Uca Allah belə buyurur:

16. **And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə pıçıldadığını (nə vəsvəsə verdiyini) bilirik. Biz ona şah damarından da yaxınıq.**
17. **(İnsanın) sağında və solunda oturan iki mələk (onun bütün əməllərini) qeydə alır.**
18. **Dediyi hər bir sözü qeyd etməyə yanında hazır olan bir gözətçi vardır.**
19. **Ölüm bihuşluğu (səkaratı) həqiqətən gələcəkdir. (Ey insan!) Bax, bu sənin qaçdığın həmin o şeydir!**
20. **Sur üfürüləcəkdir; bu, vəd olunmuş təhdid günüdür.**
21. **Hər bir kəs yanında onu məhşərə qova-qova gətirənlə və bir şahidlə gələcəkdir.**
22. **(Ona deyiləcəkdir:) "Sən bundan qafil idin. Artıq Biz sənin pərdəni qaldırdıq; bu gün sən çox yaxşı görürsən!"**
23. **Yoldaşı (əməllərinə şahid kəsilən mələk) deyəcək: "Budur, yanımdakı (əməl dəftəri) hazırdır!"**
24. **Allah əmr edərək deyəcək: "Atın Cəhənnəmə hər bir inadkar kafiri!**
25. **Xeyrə mane olanı, həddi aşanı, şübhə edəni!**
26. **O kəsi ki, Allahla yanaşı başqa bir məbud qəbul etdi. Atın onu şiddətli əzabın içinə!"**

27. Yoldaşı (şeytan) deyəcək: "Ey Rəbbimiz! Onu mən azdırmadım, lakin o özü dərin bir azğınlıq içində idi".
28. (Allah) buyuracaq: "Mənim hüzurumda mübahisə etməyin; Mən sizə əvvəlcədən xəbərdarlıq (əzab vədi) göndərmişdim.
29. Mənim sözüm dəyişməzdir və Mən bəndələrə zülm edən deyiləm!"
30. O gün Biz Cəhənnəmə: "Doldunmu?" – deyəcəyik, o isə: "Yenə varmı?" – deyə cavab verəcəkdir.
31. Cənnət isə müttəqilər üçün uzaq olmayan bir yerə gətiriləcəkdir.
32. (Onlara deyiləcək:) "Budur, sizə vəd olunan həmin o Cənnət! O, hər bir Allaha yönələn və Onun qanunlarını qoruyan üçündür!
33. O kəs üçün ki, Rəhmandan Onu görmədiyi halda qorxar və (Onun hüzuruna) tövbəkar bir qəlblə gələr.
34. Oraya sağ-salamat daxil olun! Bu, əbədiyyət günüdür!"
35. Orada onlar üçün istədikləri hər şey vardır, hüzurumuzda isə daha çoxu (artığı – Allahı görmək) mövcuddur.
36. Biz onlardan əvvəl onlardan daha qüvvətli neçə-neçə nəsilləri həlak etdik. Onlar ölkə-ölkə gəzib dolaşırdılar. Heç (ölümdən) qaçış yeri varmı?
37. Şübhəsiz ki, bunda (həssas) qəlbi olan və ya (həqiqəti) dərk edərək diqqətlə qulaq asan kimsə üçün bir öyüd-nəsihət vardır.

Bu mənzərədə həyat səfəri bütün mərhələləri ilə əks olunur; dünyadakı ilk yaradılışdan başlayaraq, Allahın hər şeyi əhatə edən elmi və nəzarəti altında keçən hər an diqqət mərkəzindədir. O, gizlini də, gizlinin də gizlisini bilir; kökslərin nəyi gizlətdiyindən və nəyi aşkar etdiyindən agahdır. Bu elə bir nəzarətdir ki, nəfsin hər bir guşəsini bürüyür, onun hər bir hərəkətini və qəlbdən keçən hər bir düşüncəsini addım-addım izləyir. Beləliklə, hər bir nəfəs sayılı, hər bir xatirə məlum, hər bir hərəkət isə hesablanmışdır. Bunların hamısı yazılmışdır. Qeybi bilən Allahdan nə göylərdə, nə də yerdə zərrə qədər bir şey gizli qalmaz; istər ondan kiçik olsun, istərsə də böyük, hər bir şey açıq-aydın bir kitabda (Lövhi-Məhfuzda) qeyd olunmuşdur.

Daha sonra o qısa həyat yolu sona çatır; insan ondan qafil olduğu bir anda ölüm bihuşluğu (səkaratı) onu qəfildən yaxalayır. Bu, həqiqətən, bir bihuşluqdur; çünki o, dünya həyatından qopub ayrılmaq, axirət həyatını isə qarşılamaqdır.

Ardınca mənzərə dəyişir; qarşımızda axirət aləminin o dəhşətli və sarsıdıcı ehtişamı canlanır. Bu, dirilmə, məhşərə çəkilmə, hesab günü və haqq-hesab meydanıdır. Burada insanı iki fərqli tərəf əhatə edir: Biri onun dünyadakı hər əməlini anbaan qeydə alan və indi həmin əməlləri təqdim edərək: "**Budur, yanımdakı (əməl dəftəri) hazırdır!**" *(Qaf, 23)* – deyən mələk; digəri isə vaxtilə ona şərin yolunu bəzəyib-düzəyən, onu azdıran, indi isə ondan üz çevirib: "**Ey Rəbbimiz! Onu mən azdırmadım, lakin o özü dərin bir azğınlıq içində idi**" *(Qaf, 27)* – deyərək yaxasını kənara çəkən şeytan...

Çox keçmədən bu çəkişmə öz yerini cəzaya və ya mükafata buraxır: günahkarlar cəhənnəm yolunda əzaba məhkum edilir, təqva sahibləri üçün isə cənnət elə yaxınlaşır ki, sanki əlləri yetəcək qədər onlara yaxın olur. Onların bu böyük ehtirama və lütfə layiq görülmələrinin səbəbi isə dünyada ikən qəlblərində daşıdıqları Allah qorxusu, axirətə olan sarsılmaz imanları və qəlblərinin hər an Allaha tərəf yönəlmələri idi. Beləliklə, vaxtilə qeybdə ikən inandıqları o cənnət artıq gözləri önündə canlanır; onlar böyük bir sevinc və ehtiramla cənnətə yola salınırlar: **"Oraya əmin-amanlıqla daxil olun! Bu, əbədiyyət günüdür! Orada onlar üçün istədikləri hər şey vardır, hüzurumuzda isə daha çoxu (artığı – Allahı görmək) mövcuddur".** *(Qaf, 34-35).*

Ölümdən sonra dirilməyə və axirət yurdunda Allahın hüzuruna çıxacağına inanmaq sadəcə nəzəri bir düşüncə deyil; əksinə, bu, insanın bu dünyadakı həyatına, atdığı hər addıma, edəcəyi və ya çəkəcəyi hər bir əmələ yön verən canlı bir şüur, diri bir duyğudur.

İmanla yoğrulmuş bir ömür – öz sonsuz genişliyi, paklığı və oyaq vicdanı ilə – müasir sivilizasiyanın təqdim etdiyi həyat tərzi arasında keçilməz bir uçurum, böyük bir fərq vardır. Zira bu müasir həyat Allahı çox nadir hallarda xatırlayır, Onunla qarşılaşmağa hazırlaşmır və Onun hər an hər şeyi görüb-nəzarət etdiyini demək olar ki, hiss etmir.

Maddi aləmdən başqa heç bir həqiqət tanımayan ateistlər üçün ölüm – həyatın sonu, yoxluğun isə başlanğıcıdır. Lakin ölümdən sonrası onlar üçün heç vaxt hesaba qatmadıqları, sarsıdıcı bir sürpriz olacaqdır: **"(Ona deyiləcəkdir:) "Sən**

**bundan qafil idin. Artıq Biz sənin pərdəni qaldırdıq; bu gün sən çox yaxşı görürsən!"** *(Qaf, 22).*

Sonra ayələr yenidən dünyaya qapılıb məğrurlaşanlara xatırladır ki, sahib olduqları o güc-qüdrət mənzərələri əslində müvəqqətidir; Allahın sonsuz qüdrəti və intiqamı qarşısında bu güc çox keçmədən puç olub gedəcəkdir. Tarixin qaranlıq qatlarında onlardan əvvəl elə ümmətlər gəlib-keçmişdir ki, onlar həm daha qüdrətli, həm də sayca daha çox idilər. Lakin nə o qüdrətləri onları fəlakətdən qoruya bildi, nə də çoxluqları onlara bir fayda verdi; sanki bu dünyada heç vaxt mövcud olmamışlar kimi silinib getdilər. Sonra Uca Allah belə buyurur:

38. **Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi.**
39. **Odur ki, onların dediklərinə səbir et; günəş doğmamışdan əvvəl də, batmamışdan əvvəl də Rəbbini həmd-səna ilə təqdis et (namaz qıl, Onu ucalt)!**
40. **Gecənin bir vaxtında və səcdələrdən (namazdan) sonra da Onun şəninə təriflər de!**
41. **Carçının yaxın bir yerdən səslənəcəyi günə qulaq kəsil!**
42. **O gün onlar o dəhşətli səsi gerçəkdən eşidəcəklər. Budur (qəbirlərdən) çıxış günü!**
43. **Şübhəsiz ki, diriləndən də, öldürən də Bizik! Dönüş də ancaq Bizədir.**

**44. O gün yer onlar üçün yarılacaq və onlar (qəbirlərindən) sürətlə çıxacaqlar. Beləcə onları bir yerə yığmaq Bizim üçün asandır.**

**45. Biz onların nə dediklərini çox yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!**

Beləliklə, surə elə başladığı kimi də sona yetir; yenə kainatdan və onun yaradılışından bəhs edir. Allah göyləri, yeri, onların arasındakı aləmləri, qalaktikaları və ulduzları altı gündə xəlq etmiş, bu möhtəşəm yaradılış zamanı Ona nə bir yorğunluq, nə də bir taqətsizlik üz vermişdir. Bu, həm də "Allah kainatı altı gündə yaratdı, yeddinci gün – şənbə günü isə dincəldi" deyən əsassız iddiaların qətiyyətlə təkzib olunmasıdır. Bu, Allahı hər kəsdən daha yaxşı tanıyan ilahi elçilərin – peyğəmbərlərin dili ilə deyilməsi qeyri-mümkün olan bir sözdür. Şübhəsiz ki, bu cür sözlər Allah haqqında cahillikdən və Onun barəsində bədgümanlıqdan başqa bir şey deyildir. Uca Allah mütləq qüdrət sahibidir, O, hər şeyə qadirdir; bir işin olmasını dilədiyi zaman ona sadəcə: «Ol!» – deyər, o da dərhal olar. Əgər onların iddia etdiyi kimi, Allah dincəlsəydi, bəs o zaman bu kainatı kim ayaqda saxlar, kim onu idarə edib nizamda saxlayardı?! Həqiqət budur ki, yorğunluq və dincəlmək kimi insani xüsusiyyətlərin Allaha aid edilməsi – cahil insanların uydurduğu və müqəddəs kitablara daxil etdikləri bir səfehlikdir. Qurani-Kərim isə Uca Allahı bu kimi mənasız və nalayiq vəsflərdən tənzih etmiş, Onun barədə yalnız və yalnız şanına layiq olan vəsfləri dilə gətirmişdir. Məhz buna görə də ayələr cahillərin söylədiklərinə qarşı səbir nümayiş etdirməyi, bütün varlığı

ilə Allaha yönəlib Onu ucaltmağı, nöqsanlardan tənzih etməyi, Ona bəndəlik etməyi və bu fani ömürdən sonra reallaşacaq o çox yaxın vüsal gününə hazırlaşmağı əmr edir.

Nəhayət, surə peyğəmbərlərin vəzifəsini və bəşəriyyətə ünvanlanmış missiyasını xatırlatmaqla yekunlaşır. Bu missiya: ağlı oyatmaq, onu həqiqətə yönəltmək, iradə və seçim azadlığını önə çəkməkdən ibarətdir. Din yolu – məcburiyyət deyil, xatırlatma yoludur. Məhəmməd peyğəmbər ﷺ heç vaxt zorba olmamış, heç kəsi öz dinini qəbul etməyə əsla məcbur etməmişdir. Qurani-Kərim də bir çox ayələrində bu həqiqəti belə təsdiq edir: "**Sən öyüd-nəsihət ver (xatırlat)! Sən ancaq öyüd-nəsihət verənsən (xatırladansan)! Sən onların üzərində bir hakim (zorba) deyilsən!**" *(Ğaşiyə, 21-22)*. Başqa bir ayədə isə belə buyurulur: "**Peyğəmbərin üzərinə düşən vəzifə ancaq (haqqı) açıq-aydın təbliğ etməkdir**" *(Nur, 54)*.

# İXLAS SURƏSİ

Bu qısa surə bütövlükdə Uca Allahın tövhidindən (təkliyindən), Onu hər növ nöqsanlardan tənzih etməkdən və Onun ucalığından bəhs edir. Bu surənin mənasının əzəmətinə və fəzilətinə görə Peyğəmbər ﷺ onun Quranın üçdə birinə bərabər olduğunu xəbər vermişdir.[1] Səhabələrdən biri (hər namazda bu surəni) təkrar edir və hər namazında onu oxuyurdu. Səhabələr bu barədə Peyğəmbərə ρ xəbər verdikdə, o: **"Ondan soruşun, bunu nə üçün edir?"** – deyə buyurdu. Ondan soruşduqda: "Çünki o, Rəhmanın vəsfidir (yəni bu surə Uca Allahdan bəhs edən, Onu vəsf edən bir surədir) və mən onu oxumağı sevirəm" – deyə cavab verdi. Peyğəmbər ﷺ buyurdu: **"Ona bildirin ki, Allah da onu sevir"**.[2] Möminlərin qəlbində Allah haqda, habelə Onun ucalığı və əzəmətli sifətləri barəsində kök salan düzgün inanc sisteminin təməlləri məhz bu surədə cəmlənmişdir.

**İxlas surəsi**

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

1. **De: "O Allah təkdir!**
2. **Allah ehtiyacsızdır.**
3. **O, nə doğub, nə doğulub,**
4. **Onun bənzəri də yoxdur".**

- **De: "O Allah təkdir!"**

---

[1] Buxari, 5013 və Müslim, 811

[2] Müslim, 810

Surə Allahın təkliyini bəyan və təsdiq etməklə başlamışdır. Ondan başqa Rəbb yoxdur; O, haqq olan İlahdır, Ondan başqa uydurulan bütün ilahlar isə saxta və batildir. O, Allahdır, birdir; Onun nə ikincisi, nə də üçüncüsü vardır. Allahdan başqa hər şey Onun məxluqu (yaratdığı) və Ona boyun əyən quludur. "**Əgər göylərdə və yerdə Allahdan başqa ilahlar olsaydı, onların hər ikisi də fəsada uğrayardı. Ərşin Rəbbi olan Allah müşriklərin Ona aid etdikləri sifətlərdən uzaqdır (münəzzəhdir)!**" *(Ənbiya surəsi, 22).* "**Allah buyurdu: "İki ilah qəbul etməyin. O, yalnız tək bir İlahdır. Odur ki, yalnız Məndən qorxun!**" *(Nəhl surəsi, 51).* Tövhid inancı bir-birinin ardınca gələn elçilərin dəvətlərinin əsası olub. Hər bir elçinin öz qövmünə müraciəti belə olmuşdur: "**Yalnız Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur**" *(Əraf surəsi, 59).* Allahla bərabər başqa ilahlar qəbul etmək bəşəriyyətin yol verdiyi ən böyük axmaqlıq və ən ağır günahdır. Çünki bu zaman (insanlar) Allahdan başqasını Ona bərabər tutmuş və Allahın haqqını başqasına vermişlər. Elə buna görə də bu (əməl) «böyük bir zülm» adlandırılmışdır. Necə ki, Uca Allah Loğmanın öz oğluna etdiyi nəsihəti barəsində belə buyurur: "**Ey oğlum! Allaha şərik qoşma. Həqiqətən, şərik qoşmaq böyük bir zülmdür!**" *(Loğman surəsi, 13).*

- **Allah ehtiyacsızdır.**

Uca Rəbbimiz Saməddir (ehtiyacsızdır)! O, göylərdə və yerdə olanların ehtiyaclarını diləmələri üçün üz tutduqları yeganə haqq İlahdır. İbadət yalnız Ona yönələr, dua və kömək yalnız Ondan dilənər. Mülk Onun olduğu halda, Ondan başqası nəyə sahib ola bilər ki?! "**Hər şeyin hökmü**

**əlində olan Allah pak və müqəddəsdir! Siz məhz Onun hüzuruna qaytarılacaqsınız**" *(Yasin surəsi, 83)*. O, haqq olan Hökmdardır (Məlikdir); Ondan başqa nə varsa, hamısı Ona məxsusdur. O, hər şeyin Xaliqi (Yaradanı), Müdəbbiri (İdarə edəni) və hər şeyin üzərində ixtiyar sahibidir. Bir ehtiyacımız olduqda, hacətimizlə Ona üz tutar, dua etdikdə isə yalnız Ona yönələrik. Peyğəmbər ﷺ bizlərə Uca Allahın belə buyurduğunu xəbər vermişdir: "**Ey bəndələrim! Sizin əvvəliniz və axırınız, insanınız və cininiz bir yerə toplansalar və Məndən (bir şey) istəsələr, Mən də hər bir insana istədiyini versəm, bu, Mənim dərgahımdakı mülkümdən ancaq iynə dənizə batırılıb çıxarıldıqda dənizdən nə azaldırsa, o qədər azaldar**".[1]

- **O, nə doğub, nə də doğulub.**

O, doğmamışdır; çünki doğmaq və ya övlad sahibi olmaq varlığın davam etməsi və bir-birini izləməsi üçün duyulan bir ehtiyacdır. Allah isə məxluqatın Xaliqi (Yaradanı) və varlığın Mucididir (onu yoxdan var edəndir). Buna görə də Allaha övlad nisbət etmək, Onu (Uca Allahın uzaq olduğu) bir naqisliklə vəsf etməkdir. Digər tərəfdən, övladın olması bərabərlik prinsipinə dayanan bir «zövcəlik» (həyat yoldaşı) münasibətini də tələb edir ki, bu da Allah üçün qeyri-mümkündür. Bu batil nəticələrə görə Allah Özündən övlad nisbətini rədd etmiş və bunun Allahın əzəməti ilə ziddiyyət təşkil edən qorxunc bir iddia olduğunu bəyan etmişdir. Allahı tanıyan və Onu uca tutan hər kəs bu iddianı inkar edər. Uca Allah belə buyurur: "**Göyləri və yeri yoxdan var**

---

[1] Buxari, 7411 və Müslim, 993

**edən Odur. Onun zövcəsi olmadığı halda, övladı necə ola bilər? Hər şeyi O yaratmışdır və O, hər şeyi biləndir!"** *(Ənam surəsi, 101).* O, həmçinin doğulmamışdır; çünki doğulmaq yoxluqdan sonra var olmaq deməkdir ki, bu da Allah barəsində qeyri-mümkündür. Uca Allah mütləq kamillik sahibidir; O, hər şeydən əvvəl olan **Əvvəldir**, hər şeydən sonra qalan **Axırdır** və O, hər şeyi əhatə edəndir.

- **Onun bənzəri yoxdur!**

Ona bənzəyən heç bir ilah yoxdur və Onun sifətlərindən hər hansı birində Ona bərabər olacaq bir varlıq mövcud deyildir. Onun sifətləri heç bir nöqsanın toxuna bilmədiyi **mütləq kamillik** sifətləridir. O, bu uca sifətlərində şəriksizdir. Uca Allahı məxluqatından heç bir şeyə bənzətmək mümkün deyil. İnsan təxəyyülü Onun əzəmətini dərk etmək və ya təsəvvürünə gətirmək iqtidarında deyildir. Çünki təxəyyül yalnız dərk etdikləri ilə məhduddur; Allah isə mütləq kamillik, izzət və əzəmət sahibidir, dərkedilməzdir. **"Gözlər Onu dərk etməz, O isə gözləri dərk edər. O, Lətifdir (hər şeyi incəliyinə qədər biləndir), hər şeydən Xəbərdardır!»** *(Ənam surəsi, 103).* **"Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) Eşidəndir, Görəndir!"** *(Şura surəsi, 11).*

Bu surədə təfərrüatı ilə izah olunan hər bir məqam, onun ilk cümləsinin – Allahın **Əhəd** (tək) olmasının təsdiqidir. O, şəriki olmayan Təkdir; bu surə şirk etiqadını rədd edir. Kainatın bu nəhəng və dəqiq nizamı ilahların çoxluğunu qəbul etməz. Çünki bu, vahid, ahəngdar və həmahəng bir kainat nizamıdır ki, onu tək bir iradə tənzimləyir və tək bir qüdrət idarə edir.

Hər bir canlının bədənindəki damarlarda qanın hərəkətini idarə edən Kimdirsə, üfüqlərin ən uzaq nöqtələrindəki planetləri, orbitləri və qalaktikaları hərəkət etdirən də Odur. Bütün bunlar dəqiq bir nizam və heyrətamiz bir mükəmməllik içindədir. Bunların hər biri Onun əzəmətinin və vəhdaniyyətinin (təkliyinin) şahidləridir. Necə ki, Uca Allah buyurur: "**Allah Özünə heç bir övlad götürməmişdir və Onunla bərabər başqa bir ilah da yoxdur. Əgər belə olsaydı, hər bir ilah öz yaratdıqlarını götürüb uzaqlaşar və onların bəziləri digərlərinə üstün gəlməyə (təzyiq etməyə) çalışardı. Allah müşriklərin Ona aid etdikləri vəsflərdən uzaqdır!»** *(Muminun surəsi, 91).*

## Quran ayələrindən seçmələr:

- **Allahı tanımaq.**
- **Allahın əzəmətinin dəlilləri.**
- **Tövhid – Allahın birliyi.**
- **Allahın bəndələrinin günahlarını bağışlaması.**
- **Allahın bəndələrinin dualarını qəbul etməsi.**
- **Allaha ibadət.**
- **Allaha bəndəlik etdiyimiz din.**
- **Peyğəmbərlər (Allahın onlara salamı olsun!)**
- **Məhəmməd ﷺ**
- **Quranda ağlın yeri.**
- **İnsani münasibətlər.**
- **Valideynə qayğı.**
- **Quranda əxlaq anlayışı.**
- **Quranda qadının yeri.**

## QURAN AYƏLƏRİNDƏN SEÇMƏLƏR

Quran nəsihətlərlə, yalnış düşüncə və təsəvvürlərin düzəldilməsi, xəta və azğınlıqların dəf edilməsi ilə doludur. Bu qısa kitabda bütün bu məsələləri əhatə etmək mümkün deyil. Lakin biz Quranda xüsusi vurğulanan və tez-tez təkrarlanan bəzi nəsihətləri seçdik ki, oxucuda Quranın ilahi mesajı barədə bir nümunə (model) formalaşsın. Bu nümunələr oxucunu Qurandakı digər xeyir yollarını və nəsihətləri öyrənməyə sövq edəcəkdir. Çünki Quran həyatın düsturu və nizamıdır. Həmin nəsihətlərdən bəziləri bunlardır:

# ALLAHI TANIMAQ

Bəşəriyyətin Allahı haqqı ilə tanıması mümkün deyildir. Necə ki, gözlər Qiyamət günü Onu gördükdə belə dərk etməyə qadir olmayacaqlar, eləcə də ağıllar Onun zatını təsəvvür etməkdə və Onu layiqincə qiymətləndirməkdə acizdir. İnsanlar üçün Allahı tanımağın yeganə yolu, Allahın Öz müqəddəs Zatı haqqında onlara bildirdiyi (vəhy etdiyi) xəbərlərdir. Uca Allah Quranda Özünün şəninə, əzəmətinə, rəhmi və fəzlinə dəlalət edən ən gözəl adlarını və uca sifətlərini zikr edərək Özünü bəşəriyyətə tanıtmışdır. Uca Allah belə buyurur:

**"Göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha həmd olsun! Belə ikən, kafir olanlar hələ də başqalarını öz Rəbbinə tay tuturlar. Sizi palçıqdan yaradan, sonra da (sizin üçün) bir əcəl (ölüm vaxtı) müəyyən edən Odur. Onun yanında məlum bir əcəl də (qiyamət vaxtı) vardır. Belə olduğu halda, siz hələ də şübhə edirsiniz. O, göylərdə də, yerdə də (ibadət olunan tək) Allahdır. Sizin gizlinizi də, aşkarınızı da bilir, nə qazandığınızdan da (hansı əməlləri etdiyinizdən də) xəbərdardır!"** *(Ənam surəsi, 1-3).*

**"Göylərdə və yerdə nə varsa, hamısı Allahın şəninə təriflər deyir. O, Əzizdir (yenilməz qüdrət sahibidir), Həkimdir (hər işi hikmətlidir). Göylərin və yerin mülkü Onundur. Dirildir və öldürür. O, hər şeyə qadirdir. O, Əvvəldir (varlığının başlanğıcı yoxdur), Axırdır (varlığının sonu yoxdur), Zahirdir (hər şeyin fövqündədir) və Batindir (hər şeyə yaxındır). O, hər şeyi biləndir. Göyləri və yeri altı**

**gündə yaradan, sonra Ərşə ucalan (istiva edən) Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Harada olsanız, O sizinlədir. Allah nə etdiklərinizi görəndir. Göylərin və yerin mülkü Onundur. Bütün işlər ancaq Allaha qaytarılacaqdır. Gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, qəlblərdə olanları biləndir"** *(Hədid surəsi, 1-6).*

**"Allah, Ondan başqa (ibadətə layiq olan) heç bir ilah yoxdur. O, əbədi Yaşayandır, yaratdıqlarının Qəyyumudur (hər şeyi idarə edən və qoruyandır). Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, məxluqatın gələcəyini də, keçmişini də bilir. Onlar Onun elmindən Onun dilədiyindən başqa heç bir şeyi qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları qoruyub saxlamaq Ona ağır gəlməz. O, Ucadır, Əzəmətlidir".** *(Bəqərə surəsi, 255).*

**"O, Özündən başqa heç bir haqq ilah olmayan Allahdır. Qeybi (gizlini) və aşkarı biləndir. O, Rəhman və Rəhimdir (Mərhəmətlidir). O, Özündən başqa heç bir ilah olmayan Allahdır. Məlikdir (hər şeyin sahibi), Qüddüsdur (pak və müqəddəsdir), Səlamdır (hər cür nöqsandan uzaqdır), Mumindir (əmin-amanlıq verəndir), Müheymindir (hər şeyi qoruyub saxlayandır, nəzarət edəndir), Əzizdir (yenilməz qüdrət sahibidir), Cəbbardır (dilədiyini zorla etdirəndir), Mütəkəbbirdir (hər şeydən uca olan, böyüklük sahibidir). Allah insanların Ona şərik qoşduqlarından bəridir – uzaqdır! O, Allahdır – Xaliqdir (yaradandır), Baridir (yoxdan var edəndir), Musavvirdir (surət verəndir).**

**Ən gözəl adlar yalnız Onundur. Göylərdə və yerdə nə varsa, hamısı Onun şəninə təriflər deyir. O, Əzizdir, Həkimdir (hər işi hikmətlidir)!"** *(Həşr surəsi, 22-24).*

## ALLAHIN ƏZƏMƏTİNİN DƏLİLLƏRİ

Uca Allahın bəşəriyyətə Öz əzəmətini göstərdiyi dəlillərdən biri də insanı hər tərəfdən əhatə edən, onların hər an şahidi olduqları və yaxından tanıdıqları yaradılışın möhtəşəmliyidir. Bizi – varlığımızı, həyatımızı hər yöndən əhatə edən nemətlər də bu dəlillərə daxildir. Bütün bunlar bizə həmin varlıqları yoxdan var edən, onları nizamlayan və onlarda müxtəlif mənfəətlər var edən Zatın əzəmətini göstərir. O, bizi kainatın əzəməti, yaradılışın misilsiz sənətkarlığı, həmçinin bu ilahi nizam və idarəetmənin hikməti barədə təfəkkür etməyə səsləyir. Çünki bütün bunlar ancaq sonsuz qüdrət, hər şeyi əhatə edən elm, kamil hikmət və geniş rəhmət sahibi olan böyük Yaradan tərəfindən var edilə bilər. Biz özümüzə və ətrafımızdakı aləmə nəzər yetirdikdə bir daha dərk edirik ki; Yaradan hər şeyə qadir, hikmət və elm sahibidir. Onun kamil sifətlərinin sonu, şanına layiq olan təriflərin isə həddi-hüdudu yoxdur. Qurani-Kərimin ayələri də buna dəlalət edir; bu kainatın öz Yaradanına işarə etdiyini və Ona gedən yolu göstərdiyini diqqətə çatdırır. Uca Allah buyurur:

**"Sizin ilahınız tək olan İlahdır. Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. O, Rəhman və Rəhimdir**

**(bağışlayan və rəhm edəndir). Şübhəsiz ki, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, insanlara fayda verən şeylərlə dənizlərdə üzən gəmilərdə, Allahın göydən endirdiyi və onunla ölmüş torpağı diriltdiyi suda, habelə yer üzünə yaydığı hər cür canlıda, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda anlayan bir qövm üçün (Allahın varlığına və qüdrətinə dair) dəlillər vardır"** *(əl-Bəqərə surəsi, 163-164).*

**"Göyü və yeri yaradan, göydən su endirib onunla sizin üçün müxtəlif meyvələrdən ruzi yetişdirən Allahdır. Onun əmri ilə dənizdə üzmək üçün gəmiləri sizin xidmətinizə verdi və çayları sizə ram etdi. Müəyyən edilmiş yol ilə hərəkət edən günəşi və ayı sizə ram etdi; gecəni və gündüzü də sizin xidmətinizə verdi. O, sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım və çox nankordur"** *(İbrahim surəsi, 32-34).*

**"Əgər onlardan: "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, mütləq: "Onları Qüdrətli və (hər şeyi) Bilən Allah yaratmışdır!" – deyə cavab verərlər. O (Allah) ki, yer üzünü sizin üçün bir beşik etdi və doğru yolu tapasınız (mənzillərinizə yetişəsiniz) deyə orada sizin üçün yollar açdı. O (Allah) ki, göydən bir ölçü ilə su endirdi. Biz onunla ölü bir məmləkətə can verdik (onu diriltdik). Siz də (qəbirlərinizdən) beləcə çıxarılacaqsınız. O (Allah) ki, bütün cütləri yaratdı və sizin üçün gəmilərdən, heyvanlardan minəcəyiniz vasitələr var etdi. Bütün bunlar ona görədir ki, həmin miniklərə mindikdə Rəbbinizin**

**nemətini yad edəsiniz və deyəsiniz: "Bunları bizə ram edən Allah pakdır, müqəddəsdir! Yoxsa bizim onlara gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə dönəcəyik"** *(əz-Zuxruf surəsi, 9-14).*

Bu kainatın öz nizamındakı bütövlüyü, tamlığı və misilsiz dəqiqliyi Yaradanın tək və uca olduğuna qəti bir dəlildir. İnsanı xəlq edən kimdirsə, heyvanat aləmini yaradan da Odur. Yer üzünü var edən kimdirsə, günəşi və ayı ucaldan da Odur. O, Öz məxluqatı arasında elə bir bağlılıq və vəhdət yaratmışdır ki, bu kainatda heç kəs hər hansı bir varlığı özünün yaratdığını iddia edə bilməz. Çünki var olan hər şey Allahın xəlq etdiyidir.

Məxluqat üzərində düşünmək, həm də bizi hər tərəfdən əhatə edən və bizim xidmətimizə verilmiş ilahi nemətlərə nəzər salmaq deməkdir. Məhz buna görə də Qurani-Kərimdə bu nemətlərin zikri birbaşa tək olan Allaha ibadət mövzusu ilə əlaqəli şəkildə verilir. Uca Allah buyurur: "**Yeri sizin üçün məskən, göyü isə bir qübbə (tavan) edən, sizə surət verib surətlərinizi gözəlləşdirən və sizə pak ruzilər bəxş edən Allahdır. Budur sizin Rəbbiniz olan Allah! Aləmlərin Rəbbi olan Allah nə qədər uca və xeyirxahdır! O, (əzəli və əbədi) Diridir. Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Elə isə dini yalnız Ona məxsus edərək (ixlasla) Ona dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!**" *(Ğafir surəsi, 64-65).*

## TÖVHİD – ALLAHIN BİRLİYİ

Həqiqətlərin ən ucası və dəlilləri ən aşkar olanı Uca Allahın birliyi, yaradılış və idarəetmədə təkliyi, eləcə də ibadətə layiq olmaqda şəriksizliyi və yeganəliyidir. Allahın birliyi əzəli və əbədi bir həqiqətdir; bütün aləmin Ona möhtaclığı da eynilə belədir. Məhz buna görə də Qurani-Kərim ayələri bu həqiqəti təsdiq etmək, ona dəlillər gətirmək və bu yoldan sapanlara cavab vermək üçün nazil olmuşdur. Bu həqiqətin əzəmətinə və aydınlığına rəğmən, bəşəriyyət tez-tez azğınlığa düşmüş, Allahla yanaşı başqa ilahlar qəbul etmişdir. Tarix boyu bir çox ümmətlərin mədəniyyətlərində Allahdan qeyrisinə – heykəllərə, bütlərə, ulduzlara və müxtəlif saxta ilahlara ibadət edildiyi görünür. Peyğəmbərlərin bir-birinin ardınca gələn risalətləri isə bu əyriliyi düzəltmək, bəşəriyyəti ibadətə layiq olan yeganə Yaradana yönəltmək məqsədi daşımışdır. Bəşəriyyətin yol verdiyi ən böyük cahillik (axmaqlıq) ibadəti Allahdan başqasına yönəltmək, məxluqatı Xaliqin haqqı olan ibadətdə Ona şərik qoşmaqdır. Halbuki ibadət yalnız və yalnız İzzət Sahibi olan Allaha yaraşar. Məxluq necə Xaliqin mərtəbəsinə ucala bilər?! Var olanla onu yoxdan var edən necə bir tutula bilər?! İnsana verilən ən böyük ikramlardan biri də budur ki, Allah onu yalnız Özünə ibadət etməklə şərəfləndirmiş, onu Rəbbindən başqasına qul olmaqdan qorumuşdur. Allaha qul olmaq, əslində, insanı başqa hər kəsə və hər şeyə bəndəlikdən qurtaran bir azadlıqdır. Eyni zamanda, yalnız Allaha məxsus olan bir haqqı, buna əsla layiq olmayan birinə vermək zülmlərin ən böyüyüdür. Bu, zəif bir məxluqu

onun Uca Yaradanı ilə eyniləşdirməkdir: "**Həqiqətən, şirk böyük bir zülmdür!**" *(Loğman surəsi, 13).* Bu məsələnin son dərəcə mühüm və böyük olması, həmçinin insanların bu yoldan tez-tez sapması səbəbindən Qurani-Kərimdə Allahın birliyini və yalnız Ona ibadət edilməli olduğunu təsdiqləyən çoxsaylı və müxtəlif mənalı ayələr yer almışdır. Həmin ayələrdən bəziləri bunlardır:

"**Məgər onlar heç bir şey yarada bilməyən, əksinə, özləri yaradılan varlıqlarımı (Allaha) şərik qoşurlar? Halbuki nə onlara (şərik qoşanlara) bir kömək edə bilər, nə də özlərinə bir xeyirləri dəyər. Siz onları doğru yola çağırsanız, ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün birdir. Allahdan başqa yalvardıqlarınız (ibadət etdikləriniz) da sizin kimi bəndələrdir. Əgər (onların ilahlığı barədə) doğru deyirsinizsə, haydı, onları çağırın, sizə cavab versinlər! Məgər onların yeriyəcək ayaqlarımı var? Yaxud tutacaq əllərimi var? Yaxud görəcək gözlərimi, yaxud eşidəcək qulaqlarımı var? De: "Şəriklərinizi çağırın, sonra mənə qarşı istədiyiniz tələni qurun və mənə heç möhlət də verməyin! Şübhəsiz ki, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, salehlərə himayədarlıq edir. Sizin Ondan başqa yalvardıqlarınız isə nə sizə kömək edə bilər, nə də özlərinə bir xeyirləri dəyər. Onları doğru yola çağırsanız, eşitməzlər. Onların sənə baxdıqlarını görərsən, halbuki onlar görmürlər. Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!**" *(əl-Əraf surəsi, 191-199).*

**"De: "Bir söyləyin görüm, Allahdan başqa yalvardıqlarınız (ibadət etdikləriniz) yer üzündə nəyi yaratmışlar? Mənə göstərin! Yoxsa onların göylərin yaradılmasında bir şərikliyi var? Əgər doğru deyirsinizsə, mənə bundan (bu Qurandan) əvvəl nazil olmuş bir kitab, yaxud elmi bir sənəd (keçmiş peyğəmbərlərin elmindən bir iz) gətirin!" Allahı qoyub qiyamət gününədək özünə cavab verə bilməyən kimsələrə yalvaran kəsdən daha azğın kim ola bilər? Halbuki (o pərəstiş olunanlar) onların dualarından xəbərsizdirlər. İnsanlar (məhşərə) toplandığı zaman o məbudlar onlara düşmən kəsiləcək və onların ibadətlərini inkar edəcəklər"** *(əl-Əhqaf surəsi, 4-6).*

**"Allah, mələklər və elm sahibləri, ədalətlə haqqı iqrar edərək şahidlik etdilər ki, Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. O, Qüdrətlidir, Hikmət sahibidir!"** *(Ali-İmran surəsi, 18).*

**"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa olan günahları isə dilədiyi kimsə üçün bağışlayar. Allaha şərik qoşan kəs, əlbəttə ki, böyük bir iftira atmış (ağır bir günah işləmiş) olar".** *(ən-Nisa surəsi, 48).*

**"Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Ey oğlum! Allaha şərik qoşma. Həqiqətən, şirk böyük bir zülmdür!"** *(Loğman surəsi, 13).*

**"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, əməlin mütləq boşa çıxacaq və mütləq ziyana uğrayanlardan olacaqsan!"** *(əz-Zümər surəsi, 65).*

# ALLAHIN BƏNDƏLƏRİNİN GÜNAHLARINI BAĞIŞLAMASI

İnsan nəfsi zəiflik anlarında və nəfsin istəklərinə (şəhvətə) məğlub olduqda xəta etməyə, günah işlətməyə və yanlış yollara sapmağa meyillidir. Uca Allah xəta edən və ya günaha batan bəndələrinə, bu hal baş verdikdə dərhal Ondan bağışlanma diləməyi əmr etmişdir. Habelə O, istiğfar edənlərin (bağışlanma diləyənlərin) günahlarını əfv edəcəyini, tövbə edənlərin isə pis əməllərini siləcəyini vəd etmişdir. Məhz buna görə də, Onun uca adlarından ikisi əl-Ğafur (çox bağışlayan) və ət-Təvvabdır (tövbələri qəbul edən). Uca Allah Qurani-Kərimdəki bir çox ayədə bunu təsdiq edərək belə buyurur:

**"De: Ey Mənim özlərinə qarşı həddi aşmış (günaha batmış) bəndələrim! Allahın rəhmətindən ümidinizi kəsməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayar. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!"** *(əz-Zümər, 53).*

**"Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: Sizə salam olsun! Rəbbiniz Öz üzərinə mərhəmətli olmağı yazmışdır (vəd etmişdir). Sizlərdən hər kəs cahilliyi üzündən pis bir iş görsə, sonra tövbə edib əməlini islah etsə, (bilsin ki) Allah, şübhəsiz, Bağışlayandır, Rəhmlidir!"** *(əl-Ənam, 54).*

**"Bəndələrinin tövbəsini qəbul edən və günahlarını əfv edən Odur"** *(əş-Şura, 25).*

Allahın lütf və kərəmindəndir ki, O, tövbə imkanını geniş tutmuş, bütün ömür yolunu tövbə üçün bir fürsətə

çevirmişdir. Ölüm anı gəlib çatana qədər bəndə nə zaman tövbə etsə, Allah onun tövbəsini qəbul edər. Necə ki, Uca Allah buyurmuşdur: "**Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar cahillikləri ucbatından pis iş gördükdən sonra çox keçmədən tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edər. Şübhəsiz ki, Allah (hər şeyi) Biləndir, Müdrikdir! Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: 'Mən indi tövbə etdim' – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi isə qəbul deyildir. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq**" *(ən-Nisa, 17-18)*.

Allahdan bağışlanma diləmək, bizimlə Allah arasında olan birbaşa bir bağdır; bu münasibətdə heç bir insanın vasitəçiliyinə yer yoxdur. Biz heç kimə etiraf (günah çıxarma) etmirik, çünki etiraf yalnız Allahadır. Bağışlanmanı da başqasından deyil, yalnız və yalnız Allahdan diləyirik. Günahkar bəndə nə zaman peşmançılıqla Allaha üz tutsa, Allah onun tövbəsini qəbul edər və günahını bağışlayar. Uca Allah belə tövbə edənləri vəsf edərək buyurmuşdur: "**O kəslər ki, bir pis iş gördükləri və ya özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını diləyərlər. Günahları Allahdan başqa kim bağışlaya bilər? Onlar etdikləri əməllərdə (günahlarda) bildikləri halda israr etməzlər**" *(Ali-İmran, 135)*.

## ALLAHIN BƏNDƏLƏRİNİN DUALARINI QƏBUL ETMƏSİ

Allah Öz bəndələrinə Ona dua etməyi, ehtiyac və istəklərini yalnız Ondan diləməyi buyurmuş, dualarını qəbul edəcəyinə dair onlara vəd vermişdir. Lakin Allahın duanı qəbul etməsi, hər zaman bəndənin istədiyinin dərhal və birbaşa yerinə yetirilməsi demək deyildir. Allah Alim (hər şeyi bilən) və Həkimdir (hikmət sahibidir). O, duanın cavabını yalnız Özünün bildiyi və idrak qabiliyyəti məhdud olan insanın anlaya bilmədiyi bir hikmətə görə təxirə sala bilər. Bəzən isə Allah bəndəsinə istədiyindən daha xeyirlisini bəxş edər. Necə ki, Peyğəmbər ﷺ buyurmuşdur: *"Müsəlmanın əl açıb etdiyi və özündə asilik, yaxud qohumluq əlaqələrinin kəsilməsini ehtiva etməyən elə bir dua yoxdur ki, Allah ona bu duasına görə üç şeydən birini bəxş etməsin: ya onun duası dərhal (bu dünyada) qəbul olar, ya Allah onu bəndəsi üçün axirətə saxlayar, ya da o duanın misli qədər bir şəri (bəlanı) ondan uzaqlaşdırar".*
Oradakılar: "Elə isə biz çox dua edərik" dedilər. Peyğəmbər ﷺ isə: *"Allahın lütfü daha çoxdur "* – deyə buyurdu.[1]

Uca Allah Qurani-Kərimin bir çox ayəsində Özünə dua olunmasını buyurmuşdur. Bu ayələrdən bəziləri bunlardır:

**"Bəndələrim Məni səndən soruşduqda (onlara de ki), Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Qoy onlar da Mənim çağırışıma cavab versinlər**

[1] Əhməd, 11133

**(itaət etsinlər) və Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər"** *(əl-Bəqərə, 186).*

**"Rəbbiniz buyurdu: Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!"** *(Ğafir, 60).*

**"Darda qalan bir kəs dua etdiyi zaman onun duasına cavab verən, şəri uzaqlaşdıran və sizi yer üzünün varisləri edən kəs kimdir? Allahla yanaşı başqa bir məbudmu var? Siz nə qədər az düşünürsünüz!"** *(ən-Nəml, 62).*

## ALLAHA İBADƏT

İbadət – Uca Allaha olan sevgi, təzim və sonsuz təslimiyyət hissi ilə Onun bizə fərz buyurduğu əmrləri yerinə yetirməkdir. Allah Qurani-Kərimdə bəşəriyyəti və bütün varlığı məhz Ona ibadət etmək üçün yaratdığını bəyan edərək belə buyurmuşdur:

**"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm, onlardan Məni yedirtmələrini də istəmirəm. Şübhəsiz ki, ruzi verən də, tükənməz qüdrət və sarsılmaz güc sahibi olan da Allahdır!"** *(əz-Zariyat, 56-58).*

Bu kainatdakı hər bir varlıq Allahı zikr edir və Ona ibadət halındadır. Göylər, yer və onlarda olan hər şey Allahın mütləq hakimiyyətinə boyun əymiş və Onun şəninə təriflər

deməkdədirlər: "**Yeddi göy, yer və onlarda olanlar Onun şəninə təriflər deyər. Elə bir şey yoxdur ki, Allaha həmd edərək Onu təsbeh etməsin, lakin siz onların zikrini anlamazsınız. Həqiqətən, O, Həlimdir (cəza verməyə tələsməyəndir), Bağışlayandır!**" *(əl-İsra, 44)*.

Kainatdakı bütün varlıqların ibadəti icbari, cinlərin və insanların ibadəti isə ixtiyaridir. Belə ki, Allah onlara iradə azadlığı vermişdir; onlar ibadəti öz seçimləri ilə edirlər. Məhz buna görə də Allah itaət edənlərin mükafatını ucaltmış, üsyan edənləri isə əzabla xəbərdar etmişdir.

Allahın insanlara yalnız Ona ibadət etmələri barədə əmri Qurani-Kərimdə dönə-dönə təkrarlanır. Uca Allah buyurur: "**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahın əzabından) qorunasınız!**" *(əl-Bəqərə, 21)* Həmçinin belə buyurur: "**Mənə ibadət edin, budur düz yol!**" *(Yasin, 61)*.

Peyğəmbərlərin təbliğlərinin də ana xəttini Uca Allaha ibadət təşkil etmişdir. Hər bir peyğəmbər öz xalqına belə müraciət etmişdir: "**Allaha ibadət edin! Sizin Ondan başqa heç bir məbudunuz yoxdur**" *(əl-Əraf, 59)*.

Məsih (İsa peyğəmbər) də öz qövmünə belə demişdi: "**Ey İsrail oğulları! Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!**" *(əl-Maidə, 72)*.

Uca Allaha ibadət etmək – namaz qılmaq, dua etmək, yoxsullara əl tutmaq, insanlara yaxşılıq etmək, valideynlərin qayğısına qalmaq və bu qəbildən olan digər saleh əməlləri yerinə yetirməkdir. Bir sözlə ibadət Uca Allahın sevib, razı qaldığı hər bir əməldir. Eyni zamanda, haramlardan

çəkinmək də Allahın əmr etdiyi bir ibadətdir. Bu haramların ən böyükləri isə Allahdan başqasına ibadət etmək, günahsız bir insanı öldürmək, başqasının malını haqsız yerə mənimsəmək, zina etmək, valideynə asi olmaq və digər bu kimi qadağan olunmuş əməllərdir.

## ALLAHA BƏNDƏLİK ETDİYİMİZ DİN

Biz dinimizi özümüz seçmirik; əksinə, onu bizim üçün seçən və bizə layiq görüb bəyənən Allahdır. Məhz buna görə də O, peyğəmbərləri haqq dinlə göndərmişdir.

Bütün peyğəmbərlər dinin əslində, yəni ibadətdə Allahın təkliyini qəbul etmək məsələsində həmrəy olmuşlar. Onların hər biri ibadətin yalnız Allaha yönəldilməsi və Ondan başqa heç kəsə ibadət olunmaması çağırışında birləşmişlər. Necə ki, Uca Allah buyurmuşdur: "**Biz hər ümmətə: Allaha ibadət edin, tağutdan (Allahdan başqa ibadət olunan hər şeydən) uzaq olun! – deyə bir elçi göndərdik**" *(ən-Nəhl, 36)*.

Şəriətlərə (hökm və qaydalara) gəlincə, onlar həyat şəraitinin dəyişməsi ilə bağlı olaraq peyğəmbərdən peyğəmbərə fərqlənmiş, hər yeni şəriət özündən əvvəlkinin hökmünü qüvvədən düşürmüşdür. Nəhayət, bəşəriyyət yetkinləşdikdə və bilikləri təkamül etdikdə, Allah sonuncu peyğəmbəri Məhəmmədi ﷺ sonuncu din olan İslamla göndərdi. Allah bu dini zamanın sonuna qədər bəşəriyyətə bələdçilik etməyə yararlı (mükəmməl) bir nizama çevirdi. Məhəmməd peyğəmbərin şəriəti və risaləti əvvəlki bütün

şəriətləri nəsx etdi (hökmünü aradan qaldırdı). Artıq Allah heç kəsdən İslamdan başqa bir dini qəbul etməz. Necə ki, Uca Allah buyurmuşdur: "**İslamdan başqa bir din axtaran kəsdən (o din) əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar**" *(Ali-İmran, 85)*.

İslam – Allahın bəşəriyyət üçün seçib bəyəndiyi, kamil etdiyi və bununla da onlara olan nemətini tamamladığı bir dindir. Necə ki, Uca Allah buyurmuşdur: "**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamdan razı qaldım (onu seçdim)**" *(əl-Maidə, 3)*. Həmçinin buyurur: "**Şübhəsiz ki, Allah yanında (haq) din İslamdır!**" *(Ali-İmran, 19)*.

Artıq heç kəsin Allaha qovuşmaq üçün İslamdan başqa bir din seçmək haqqı yoxdur. İslam yolundan başqa bütün yollar insanı Allaha çatdırmaz. Necə ki, Uca Allah buyurmuşdur: "**Bu, Mənim doğru yolumdur, onu tutub gedin! Başqa yollara uymayın, yoxsa o yollar sizi Allahın yolundan ayırıb pərən-pərən salar**" *(əl-Ənam, 153)*.

İslamdan kənar bütün yollar insanı azğınlığa və çaşqınlığa sürükləyir. Bu yollar Allaha qarşı bir iftira və yalandır. Necə ki, Uca Allah buyurmuşdur: "**İslama dəvət olunduğu halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Allah zalım qövmü doğru yola yönəltməz!**" *(əs-Saff, 7)*.

Allah haq dində onun doğruluğuna dair dəlillər qoymuşdur. İslamın mesajı ilə tanış olan hər kəs görər ki, ağıl bu dini dərk edir, insan fitrəti isə onu tərəddüdsüz qəbul edir. Beləcə, o, İslamın bəşəriyyətə göndərilmiş ilahi bir ismarıc olduğunu anlayar. İslama tabe olmayanların

çoxunun problemi onunla qane olmamaları deyil, əslində İslamı yaxından tanımamalarıdır. Əgər onlar İslamı dərindən tanısaydılar, onu sevərək qəbul edər və onun doğruluğuna dair onlarda tam qənaət hasil olardı.

## PEYĞƏMBƏRLƏR
## (Allahın onlara salamı olsun!)

Qurani-Kərimdə peyğəmbərlərin adı böyük ehtiram və yüksək təriflərlə anılır; onlar bəşəriyyət üçün möhtəşəm bir örnək, təqlid ediləcək ən gözəl nümunələrdir. Quranda uca peyğəmbərlərin adları tez-tez təkrarlanmışdır: Nuhun adı 43 dəfə, İbrahim 63 dəfə, Musa 131 dəfə, İsa 25 dəfə, Məhəmməd ﷺ isə cəmi 4 dəfə zikr olunmuşdur. Həmçinin Zəkəriyya, Yəhya, Harun, Davud, Süleyman və digər peyğəmbərlərin (hamısına Allahın salamı olsun!) adları da Quranda yer almışdır. Quranın xüsusi olaraq vurğuladığı məqamlardan biri də bütün peyğəmbərlərə iman gətirməyin vacibliyi və onlar arasında heç bir fərq qoyulmamasıdır. Onların hər biri Allahın seçdiyi və Öz risaləti ilə göndərdiyi elçiləridir. Belə ki, Uca Allah buyurur: "**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəsillərinə (övladlarına) nazil olanlara, Musaya və İsaya verilənlərə və (digər) peyğəmbərlərə Rəbbi tərəfindən verilən vəhyə iman gətirdik. Biz onların heç birini bir-birindən ayırmırıq. Biz yalnız Ona təslim olanlarıq!" Əgər onlar da sizin iman gətirdiyiniz kimi**

**iman gətirsələr, doğru yola yönəlmiş olarlar. Yox, əgər üz döndərsələr, deməli, onlar (sizdən) ayrılmış (düşmənçilik etmiş) olarlar. Onlara qarşı Allah sənə kifayət edər. O, Eşidəndir, Biləndir!"** *(əl-Bəqərə, 136-137).*

Digər ayədə belə deyilir: "**Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik. Biz İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəsillərinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda isə Zəburu verdik. Elə elçilər oldu ki, onların əhvalatını sənə daha öncə danışdıq, elə elçilər də oldu ki, onların əhvalatını sənə danışmadıq. Allah Musa ilə birbaşa danışdı. (Biz) müjdə verən və qorxudan elçilər göndərdik ki, bu elçilərdən sonra insanların Allaha qarşı heç bir bəhanəsi qalmasın. Allah Qüdrətlidir, Müdrikdir! Lakin Allah sənə nazil etdiyinə şahidlik edir; O, bunu Öz elmi ilə nazil etmişdir. Mələklər də buna şahiddirlər. Şahid olaraq Allah kifayət edər!"** *(ən-Nisa, 163-166).*

Uca Allah buyurur: "**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə bir elçi göndərdik. Onlardan bəzisini Allah doğru yola yönəltdi, bəzisi isə azğınlığı (zəlaləti) haqq etdi. Yer üzündə gəzib dolaşın və görün (peyğəmbərləri) yalan hesab edənlərin aqibəti necə oldu!"** *(ən-Nəhl, 36).*

## MƏHƏMMƏD
## (Allahın ona salamı olsun!)

Quran ayələri Peyğəmbəri ﷺ bizə tanıtdırarkən onun bir bəşər olduğunu, Allahın bəndəsi və Onun tərəfindən göndərilmiş bir elçi olduğunu xüsusi vurğulayır. Onun risaləti bütün zamanlar və məkanlar üçün bütün bəşəriyyətə ünvanlanmışdır. Quranda onun kəramətli vəsfləri və uca əxlaqı belə vəsf olunur: "**De: Mən də sizin kimi bir bəşərəm. Mənə vəhy olunur ki, sizin məbudunuz tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına (Ona qovuşacağına) ümid bəsləyirsə, saleh əməllər etsin və Rəbbinə etdiyi ibadətdə heç kəsi Ona şərik qoşmasın!**" *(əl-Kəhf, 110)*. "**Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin çətinliyə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı çox hərisdir (sizin doğru yola gəlməyinizi istəyir), möminlərə qarşı isə şəfqətli və mərhəmətlidir**" *(ət-Tövbə, 128)*. "**Biz səni aləmlərə yalnız bir rəhmət olaraq göndərdik**" *(əl-Ənbiya, 107)*. "**Şübhəsiz ki, sən uca bir əxlaq üzərindəsən!**" *(əl-Qələm, 4)*. "**Allah möminlərə öz aralarından onlara Allahın ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı (Quranı) və hikməti öyrədən bir elçi göndərməklə böyük bir lütf etdi. Halbuki onlar bundan əvvəl açıq-aydın bir azğınlıq içində idilər**" *(Ali-İmran, 164)*. "**Ey Peyğəmbər! Həqiqətən, Biz səni həm bir şahid, həm bir müjdəçi, həm də bir qorxudan (xəbərdar edən) olaraq göndərdik. Onu həm də Allahın izni ilə Ona tərəf çağıran (bir dəvətçi) və nur saçan bir çıraq etdik**" *(əl-Əhzab, 45-46)*.

Quran ayələri Məhəmməd peyğəmbərin ﷺ bir insan olduğunu qətiyyətlə vurğulayır; o, nə bir mələkdir, nə də ibadət olunacaq bir varlıqdır. O, Allahın qulu və göndərdiyi elçisidir. Necə ki, Uca Allah buyurmuşdur: "**De: Rəbbim pakdır, müqəddəsdir! Mən yalnız bir bəşər olan elçi deyiləmmi?**" *(əl-İsra, 93).* "**De: Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Sizə demirəm ki, mən bir mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram**" *(əl-Ənam, 50).*

Məhəmməd peyğəmbər ﷺ elçilər və nəbilər silsiləsinin onunla tamamlandığını qəti şəkildə vurğulamış, özündən sonra hər hansı bir peyğəmbərin gəlmə ehtimalını və ya şəriətinin dəyişdirilməsini qətiyyətlə rədd etmişdir. Bu, peyğəmbərlik tarixində görünməmiş müstəsna bir vəziyyətdir. Uca Allah buyurmuşdur: "**Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi Biləndir!**" *(əl-Əhzab, 40).* Allahın rəsulu ρ isə belə buyurmuşdur: *"Şübhəsiz ki, məndən sonra heç bir peyğəmbər gəlməyəcəkdir".*[1]

Məsələn, Musa peyğəmbər özündən sonra heç bir peyğəmbərin gəlməyəcəyini söyləməmiş, əksinə, gələcək peyğəmbəri müjdələmiş və bunu təsdiq etmişdir. Həqiqətən də, Musadan sonra bir peyğəmbər gəldi ki, o da İsa idi. Eynilə, İsa da özündən sonra peyğəmbər gəlməyəcəyini deməmiş, əksinə, gələcək olanı müjdələmişdi. Həqiqətən də, İsadan sonra bir peyğəmbər gəldi ki, o da Məhəmməd ﷺ idi.

---

[1] Buxari, 3455 və Müslim, 1842

Lakin bütün peyğəmbərlər arasında yalnız Məhəmməd ﷺ özündən sonra hər hansı bir peyğəmbəri müjdələməmişdir. Əksinə, həm özü, həm də ona nazil olan Kitab onun "peyğəmbərlərin sonuncusu" olduğunu və ondan sonra heç bir peyğəmbərin gəlməyəcəyini qəti şəkildə bəyan etmişdir. Onun bu bəyanatı peyğəmbərlik tarixində görünməmiş qədər uzun bir zaman keçməsinə baxmayaraq, əsrlərə meydan oxuyaraq sarsılmaz şəkildə öz qüvvəsində qalmaqdadır.

## QURANDA AĞLIN YERİ

Quran ayələri bir çox yerdə birbaşa ağla xitab edir və onu işlətməyə çağırır; bu səbəbdən ayələrdə: "**Şübhəsiz ki, bunda anlayıb dərk edən bir qövm üçün nişanələr vardır**" *(ər-Rum, 24)*, "**Məgər başa düşmürsünüz?**" *(əl-Muminun, 80)*, "**Həqiqətən, bunda düşünən bir qövm üçün dəlillər vardır**" *(ər-Rəd, 3)*, "**Bəlkə, düşünələr**" *(ər-Rum, 8)* kimi çağırışlar tez-tez təkrarlanır. Quran öz ağlını dondurub heç bir idrak və bəsirət sahibi olmadan sadəcə özündən əvvəlkiləri təqlid etməklə kifayətlənənləri tənqid edərək buyurur: "**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızı nə üzərində tapdıqsa, ona tabe olarıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməmişdilərsə necə?**" *(əl-Bəqərə, 170)*.

Eyni zamanda Quran ayələri ağlını fəaliyyətsiz qoyanları məzəmmət edərək belə buyurmuşdur: "**Onların qəlbləri vardır, lakin onunla anlamazlar**" *(əl-Əraf, 179)*.

Quran ayələri bəyan etmişdir ki, Allah insana haqla batili bir-birindən ayırmaq üçün əqli qabiliyyət bəxş etmiş, iradə və seçim azadlığını onun özünə buraxmış və qərarının məsuliyyətini də onun üzərinə qoymuşdur: "**Həqiqətən, Biz insanı qatışdırılmış bir nütfədən yaratdıq. Biz onu imtahan edirik; bu səbəbdən də onu eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yolu göstərdik; ya şükür edən olar, ya da nankor!**" *(əl-İnsan, 2-3)*. Uca Allah həmçinin belə buyurur: "**De: Haqq Rəbbinizdəndir! Kim istəyir iman gətirsin, kim də istəyir kafir olsun!**" *(əl-Kəhf, 29)*; "**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan (batildən) aydın şəkildə fərqlənmişdir**" *(əl-Bəqərə, 256)*. Bu səbəbdən də Qurandakı iman məsələlərində ağlı çətinliyə salacaq və ya onu çıxılmaz vəziyyətə qoyacaq heç bir xüsus yoxdur; əksinə, Quranın qərar verdiyi hər bir məqamda sağlam əqli təsəvvürlə bir uyğunluq və bütün insanlar üçün ortaq olan saf fitrətlə bir ahəngdarlıq mövcuddur.

İnsanın ağlını işlətməli və üzərində dərindən düşünməli olduğu ən mühüm məsələ yaradılışın taleyüklü suallarıdır: Mən haradan gəlmişəm? Həyatdakı həqiqi vəzifəm nədir? Sonum və aqibətim hara olacaq?

İnsan bu sualların qəti və qəlbi aram edən cavabını yalnız ilahi vəhydə tapa bilər; bəşəriyyətin əlindəki ən doğru vəhy isə Qurandır və varlığın bu çətin, taleyüklü suallarının cavabı ondadır. Hər kim bu məsələyə ciddiyyətlə yanaşar, həqiqətə çatmaq üçün səy göstərər və Rəbindən hidayət diləyərsə, Allah onu tənha qoymaz, mütləq doğru yola və haq dinə yönəldər. Lakin hər kim bu işə yüngül yanaşar, ona ciddi yanaşmayıb Allahın ismarıcından üz döndərər,

ağlını və təfəkkürünü bu yolda işlətməzsə, özünə qarşı ən böyük cinayəti etmiş olar; çünki o, həm özünü zəlalət labirintində itirmiş, həm də əbədi aqibətini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdur. Uca Allah buyurur: "**Kim Mənim zikrimdən (dinimdən) üz döndərərsə, onun üçün sıxıntılı bir güzəran (həyat) olar və Biz Qiyamət günü onu kor olaraq məhşərə gətirərik**" *(Taha, 124)*. Həmçinin belə buyurur: "**Rəbbinin ayələri özünə xatırladıldıqdan sonra ondan üz döndərən kəsdən daha zalım kim ola bilər? Şübhəsiz ki, Biz günahkarlardan intiqam alacağıq!**" *(əs-Səcdə, 22)*.

## İNSANİ MÜNASİBƏTLƏR

Allah bəşəriyyətə xitab etdikdə müəyyən bir irqi və ya cinsi nəzərdə tutmur, əksinə, bütün insanları birləşdirən ortaq atalarına nisbət edərək onlara: "**Ey Adəm oğulları!**" *(əl-Əraf, 35)* deyə səslənir. Bütün insanların öz ataları Adəmə nisbət edilməsi onların irqlərini, rənglərini və mənşələrini bir kökdə birləşdirir, aralarındakı irqi fərqlilik iddialarını və üstünlük yarışını ləğv edir.

Quran ayələri yer üzündəki xalqlar və qəbilələr arasındakı münasibətlərin əsasının tanışlıq olduğunu bəyan edir; tanışlıq isə əməkdaşlığa aparan yoldur: "**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır!**" *(əl-Hucurat, 13)*.

Quran ayələri təsdiq edir ki, Allah atamız Adəmdən etibarən bütün insanlara ümumi bir ehtiram bəxş etmişdir; yəni digərlərindən daha üstün, seçilmiş bir irq və ya daha aşağı səviyyəli bir sinif yoxdur: "**Biz, Adəm övladlarını şərəfli etdik, onları quruda və dənizdə (miniklər üzərində) daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın bir çoxundan xeyli üstün etdik**" *(əl-İsra, 70)*.

Qurani-Kərimdə insani münasibətlər xeyirxahlığa, ixtilaf zamanı isə ədalətə əsaslanır: "**Allah din uğrunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə rəftar etmənizi sizə qadağan etməz. Şübhəsiz ki, Allah ədalətli olanları sevir!**" *(əl-Mumtəhinə, 8)*.

İslam dini insanın ən zəif və yardıma möhtac olduğu anlarda belə ona qarşı xeyirxah olmağı əmr edir. Hətta bu insan döyüş meydanında əsir düşmüş bir düşmən olsa belə, əsirlik halı onu zəif və himayəyə möhtac qıldığı üçün o, artıq mərhəmət və şəfqət obyektinə çevrilir. Uca Allah Cənnətlə müjdələnmiş kəramətli bəndələrinin xüsusiyyətlərini zikr edərkən belə buyurur: "**Onlar özləri yemək istədikləri halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər**" *(əl-İnsan, 8)*. Bu ayədə yoxsul, yetim və əsirin bir arada zikr edilməsi təsadüfi deyil; çünki onların hər biri sosial və ya fiziki baxımdan zəifdir, müdafiəsizdir və insani qayğıya ehtiyac duyur. İslamın bu ülvi yanaşması, insaniyyətin hər cür mənfəət və düşmənçilikdən üstün olduğunu bir daha sübut edir.

# VALİDEYNƏ QAYĞI

Allah valideynlərin uşaqlara qarşı kiçik yaşlarında, zəif olduqları vaxtda göstərdikləri qayğını, çəkdikləri əziyyət və məşəqqətləri övladların yadına salmışdır. O, valideynlərə yaxşılıq etmək və onlarla gözəl davranmaq haqqının, hətta onlar İslamdan başqa bir dində olsalar belə, qüvvədə qaldığını və mütləq olduğunu vurğulamışdır. Onların dinlərinin fərqli olması valideynlik haqqını azaltmır.

Uca Allah buyurur: "**Biz insana valideynlərinə yaxşılıq etməyi tövsiyə etdik. Anası onu (bətnində) gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Dönüş yalnız Mənədir. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə çalışsalar, onlara itaat etmə! Dünyada (digər dünyəvi işlərdə) onlarla xoş rəftar et və Mənə üz tutanların yolu ilə get! Sonra dönüşünüz yalnız Mənədir, Mən də sizə nələr etdiyinizi xəbər verəcəyəm**" *(Loğman, 14-15)*.

Allah Quranda valideynlərə yaxşılıq etməyi, onlara hörmətlə yanaşmağı və gözəl davranmağı təkidlə əmr etmiş, onların məqamını ucaltmaq üçün valideyn haqqını Öz haqqı ilə yanaşı zikr etmişdir: "**Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşı davranmağı əmr etmişdir. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalığın ən düşgün çağına çatarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların önündə rəhm edərək təvazökarlıq qanadını aşağı sal və (onlar üçün dua edərək) belə de: "Ey Rəbbim! Onlar məni körpəliyimdən**

**tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" Rəbbiniz sizin ürəklərinizdə olanları ən yaxşı biləndir. Əgər siz saleh olsanız, şübhəsiz ki, O, tövbə edənləri bağışlayandır"** *(əl-İsra, 23-25).*

## QURANDA ƏXLAQ ANLAYIŞI

Quran ayələri insanı ali əxlaqi keyfiyyətlərə səsləyir, bu xüsusiyyətlərə təşviq edir və onları həm insanlarla münasibət, həm də Allaha ibadət forması kimi təqdim edir. İslamda dürüstlük, xeyirxahlıq və vəfalı olmaq eyni zamanda Allaha ibadət sayılır və bu əməllərin Allah qatındakı mükafatı çox böyükdür.

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və doğru insanlarla bərabər olun!"** *(ət-Tövbə, 119).*

Həmçinin belə deyilir: **"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydurarlar. Onlar əsl yalançılardır"** *(ən-Nəhl, 105).*

Digər ayələrdə isə ictimai əxlaqın əsasları belə bəyan edilir: **"Ey iman gətirənlər! Bir camaat digərini lağa qoymasın. Ola bilsin ki, onlar bunlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları ələ salmasınlar. Ola bilsin ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi alçaldıcı ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adla adlanmaq nə pisdir! Tövbə etməyənlər isə zalımlardır. Ey iman gətirənlər! Çoxlu zənlərə qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi**

**günahdır. Bir-birinizi güdməyin və bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz! Allahdan qorxun! Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, Rəhmlidir"** *(əl-Hucurat, 11-12).*

Allahın ədalət və xeyirxahlıq əmri isə belədir: "**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara (haqqını) verməyi buyurur; ədəbsizliyi, pis işləri və azğınlığı isə qadağan edir. O, sizə öyüt-nəsihət verir ki, bəlkə, düşünəsiniz**" *(ən-Nəhl, 90).*

Əmanət və hökm vermə məsələsində isə belə buyurulur: **"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Allahın sizə verdiyi bu öyüt necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir"** *(ən-Nisa, 58).*

## QURANDA QADININ YERİ

Qadının Quranda özünəməxsus yeri və uca məqamı vardır. Bu, bəşəriyyətin anası, Adəmin zövcəsi Həvvanın şəxsində ilk yaradılışdan etibarən özünü göstərir. Allah Adəmin və onunla birlikdə zövcəsinin yaradılmasını zikr edərək ilk bəşər ailəsinin təməlinin qoyulduğunu bildirir: "**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız**

**Ondan ən çox qorxanınızdır! Həqiqətən, Allah Biləndir, Xəbərdardır!"** *(əl-Hucurat, 13)*.

Allah Quranda Öz bəndələrinə xitab etdikdə həm kişiləri, həm də qadınları əhatə edən ümumi bir dillə müraciət edir. Uca Allah buyurur: "**Rəbbi də onlara (onların dualarına) belə cavab verdi: Mən istər kişi, istərsə də qadın olsun, sizdən heç bir əməl sahibinin əməlini puç etmərəm. Siz bir-birinizdənsiniz (eyni mənşədənsiniz)**" *(Ali-İmran, 195)*.

Həmçinin buyurur: "**Mömin olmaq şərtilə, istər kişi, istərsə də qadın olsun, xeyirli işlər görənlər Cənnətə girərlər və onlara xurma çəyirdəyinin qırıntısı qədər belə zülm olunmaz**" *(ən-Nisa, 124)*.

Yenə buyurur: "**Mömin olaraq yaxşı iş görən istər kişi, istərsə də qadın olsun, Biz ona mütləq pak bir həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını mütləq verəcəyik**" *(ən-Nəhl, 97)*.

Digər ayədə isə belə deyilir: "**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, itaətkar kişilər və itaətkar qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, Allaha qarşı itaətkar kişilər və itaətkar qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və Allahı çox zikr edən qadınlar üçün Allah bağışlanma və böyük bir mükafat hazırlamışdır**" *(əl-Əhzab, 35)*.

Allah həm kişi, həm də qadın olmaqla bütün möminlərə örnək və nümunə göstərdikdə, iki əzəmətli mömin qadını misal çəkmişdir ki, onlar bütün iman gətirənlər üçün nümunə olsunlar. Uca Allah buyurur: "**Allah iman gətirənlərə Fironun zövcəsini (Asiyanı) misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz yanında – Cənnətdə bir ev tik! Məni Firondan və onun əməlindən qurtar! Məni zalım qövmdən xilas et!" – demişdi. Həmçinin ismətini qorumuş İmran qızı Məryəmi də misal çəkdi. Biz onun paltarının yaxasından Öz ruhumuzdan üfürdük. O, Rəbbinin kəlamlarını və Onun kitablarını təsdiq etdi və (Allaha) itaət edənlərdən oldu**" *(ət-Təhrim, 11-12)*.

Qurani-Kərimdə Məryəmə və onun anasına qarşı böyük bir ehtiram, onların məqamının uca tutulması müşahidə olunur. Allah Məryəmi uca rəsulların zikri ilə eyni silsilədə qeyd edərək buyurur: "**İsmətini qorumuş o qadını da (yad et)! Biz Öz ruhumuzdan ona üfürdük, onu və oğlunu aləmlərə bir möcüzə etdik**" *(əl-Ənbiya, 91)*. Onun anası – İmranın zövcəsi haqqında isə belə buyurur: "**Bir zaman İmranın zövcəsi demişdi: "Ey Rəbbim! Mən bətnimdəkini Sənə xidmət etmək üçün nəzir etdim. Məndən qəbul et! Şübhəsiz ki, Sən Eşidənsən, Bilənsən". Onu doğduqda isə dedi: "Ey Rəbbim! Mən qız doğdum". Allah onun nə doğduğunu daha yaxşı bilirdi. Axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum. Onu və onun nəslini lənətlənmiş şeytandan Sənə tapşırıram**" *(Ali-İmran, 35-36)*. Allah Məryəmin məqamını ucaltmış, onun seçildiyini və mələklərin ona tərifini belə zikr etmişdir: "**Bir zamanlar**

**mələklər dedilər: Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və səni aləmlərin qadınlarından üstün tutdu. Ey Məryəm! Rəbbinə itaət et, səcdə qıl və rüku edənlərlə birlikdə rüku et!"** *(Ali-İmran, 42-43)*. Beləliklə, Allah Məryəmi paklıq, iffət, səbir və dözüm timsalı olaraq bütün aləmlər üçün bir ayə (möcüzə və ibrət) etmişdir.

# Qurani qaydalar:

1. "İnsanlara gözəl söz söyləyin!"

2. "Bir-birinizə qarşı yaxşılıqı unutmayın!"

3. "Heç bir günahkar başqasının günah yükünü daşımaz".

4. "Allahın sənə verdiyi ilə Axirət yurduna can at, dünyadakı nəsibini də unutma!"

5. "Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır".

6. "Rəbbinin sənə olan nemətindən söhbət aç!"

# QURANİ QAYDALAR

Qurani-Kərimdə həyat düsturu və münasibətlər sistemi mahiyyətində olan bir çox ayələr vardır ki, bunlar az sözlə çox dərin mənaları ifadə edir. Onlardan bəziləri aşağıdakılardır:

**1. "İnsanlara gözəl söz söyləyin!"[1]**
Bu, insanlar arasındakı ünsiyyətin təməl qaydası və qanunudur. Bu qayda hər kəslə xoş dillə danışmağı, çirkin və incidici sözlərdən uzaq durmağı əmr edir. Hətta dini baxışları fərqli olanlarla belə bu prinsiplə davranılmalıdır. Uca Allah buyurur: "**Kitab əhli ilə yalnız ən gözəl tərzdə mübahisə edin!**" *(əl-Ənkəbut, 46)*. Eynilə digər bir ayədə belə buyurulur: "**Bəndələrimə de ki, bir-birlərinə ən gözəl sözləri söyləsinlər!**" *(əl-İsra, 53)*. Mömin bir sözün daha gözəli olduğu halda ondan aşağısını söyləməz, əksinə, sözün ən gözəlini seçib onu dilə gətirər.

**2. "Bir-birinizə qarşı yaxşılıqı unutmayın!"[2]**
Bu tövsiyə boşanma və həyat yoldaşlarının bir-birindən ayrılmasından bəhs edən ayənin sonunda gəlmişdir. Burada məqsəd tərəflərin bir-birlərinə qarşı etdiyi güzəşti, əfv və yaxşılıqları göz önündə tutmalarıdır. Əgər ayrılıq anında belə bu cür davranmaq tövsiyə olunursa, o zaman insanların ünsiyyət və razılıq halında olduqları zaman bu xüsusiyyətin aralarında daha geniş yayılması və bir-birlərinin

---
[1] əl-Bəqərə, 83
[2] əl-Bəqərə, 237

yaxşılıqlarını unutmamaları daha önəmlidir. İnsan mümkün olduğu qədər bu xeyirxahlığı qorumalı və onu hər fürsətdə qazanmağa çalışmalıdır.

**3. "Heç bir günahkar başqasının günah yükünü daşımaz".**[1]

Bu, Qurani-Kərimdə bir neçə yerdə təkrarlanan aşkar bir həqiqətdir. Ayə hər bir insanın fərdi məsuliyyət daşıdığını, hər kəsin öz əməlinə bağlı olduğunu təsdiq edir. Əgər bir kəs doğru yolu seçərsə, bu onun öz xeyrinədir, əgər səhv edərsə, bu da onun öz əleyhinədir. Heç bir kəs başqasının yükünü (günahını) çiyninə almaz və heç kim başqasının layiq olduğu savabı əldə etməz: **"Həqiqətən, heç bir günahkar başqasının günahını daşımaz. İnsana ancaq öz səyi qalar"** *(ən-Nəcm, 38-39)*. Beləliklə, nə kimsə başqasının günahını yüklənər, nə də kimsə başqasının qazandığı həsənatı (savabları) onun əlindən alar. Hər fərdin yalnız öz əməlinə görə qarşılıq alacağını bilməsi insana arxayınlıq verən bir amildir; beləcə, fərd başqasının cinayətinə görə cəzalandırılmaq qorxusu yaşamaz və özündən əvvəlkilərin törətdiyi heç bir günahı miras olaraq daşımaz.

**4. "Allahın sənə verdiyi ilə Axirət yurduna can at, dünyadakı nəsibini də unutma".**[2]

Bu tövsiyə, Allahın böyük xəzinələr bəxş etdiyi Qarunun öz xalqına qarşı azğınlıq və təkəbbür etdiyi zaman ona verilən nəsihətlərdən biridir. Xalqı ona sərvətlə davranmağın doğru yolunu göstərərək nəsihət etdi ki, mal-dövlətini əbədi

[1] ən-Nəcm, 38

[2] əl-Qəsəs, 77

mənzili olan Axirət yurdu üçün xeyirli işlərə sərf etsin. Lakin bu, onun dünya həyatının rifahından və gözəlliklərindən zövq almasına, malını dünyəvi mənafeləri üçün xərcləməsinə mane olmurdu. Bu qayda dünya həyatı ilə Axirətə hazırlaşmaq arasında mükəmməl bir balans qurmağa yönəlmişdir. İnsan bu tarazlığı və mötədilliyi qorumaqla, nəfsini dünyanın halal nemətlərindən məhrum etmədən Axirət qarşısındakı vəzifələrini də yerinə yetirmiş olur.

**5. "Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır".**[1]

Bu cümlə mənasını tamamladığı, genişləndirdiyi və dərinliklərini izah etdiyi bir ayənin tərkib hissəsidir. Uca Allah buyurur: "**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır (təqvalı olanınızdır). Həqiqətən, Allah Biləndir, Xəbərdardır!**" *(əl-Hucurat, 13)* Bu ayə bəşəriyyət arasındakı ən böyük ortaq bağları xatırladır: hər kəsin Rəbbinin Allah olması, hər kəsin Onun tərəfindən yaradılması və bütün insanların vahid kökdən – bəşəriyyətin atası Adəm və anası Həvvadan gəlməsi. İnsanların müxtəlif xalqlara, qəbilələrə, ölkələrə və rənglərə bölünməsi çəkişmə və ixtilaf üçün deyil, "tanışlıq" və "əməkdaşlıq" üçündür. İnsanlar arasında ədalətli münasibətlərin qurulması üçün bu ayə onların bir-birlərinə qarşı üstünlük iddia etdiyi bütün dünyəvi meyarları ləğv

[1] əl-Hucurat, 13

edir. Ayə irqçilik, rəng ayrı-seçkiliyi, millətçilik təəssübkeşliyi və ya vəzifə və var-dövlətlə insanlara yuxarıdan aşağı baxmaq kimi kiçik və məhdud anlayışları rədd edir. Bütün bu maddi meyarların əvəzinə insanları ülvi, rəbbani və əxlaqi dəyərlərə bağlayır ki, bunların da zirvəsi "Allah qorxusudur, təqvadır". Allah qatında yeganə keçərli dəyər budur. Məhz bu dəyər sayəsində ruhlar dar irqçilik buxovlarından qurtularaq geniş insani üfüqlərə yüksəlir.

**6. "Rəbbinin sənə olan nemətindən söhbət aç!"**[1]

Bu ayədə Uca Allahın nemətləri haqqında danışmaq əmr olunur. Ayədə bu nemətlərin kimə söylənilməsi xüsusi olaraq qeyd edilməmişdir; lakin insanın bu barədə danışmalı olduğu ilk kəs elə onun öz nəfsidir. İnsan həyatını bürüyən və onsuz yaşayışın dadı olmayacaq ilahi nemətləri daim xatırlamalıdır. İnsan çox vaxt vərdiş etdiyi üçün sahib olduğu nemətlərin fərqində olmur. Onu heyvandan ayıran **ağıl**, hərəkət etməsini təmin edən **sağlamlıq**, ləzzətlə yediyi bir tikə **çörək**, hüzurla içdiyi bir qurtum **su**, təhlükəsiz şəkildə sığındığı bir **yuva** və onu əhatəsində olan minlərlə təhlükədən qoruyan **əmin-amanlıq** neməti... İnsan bu nemətləri saymağa başlasa, onların içində üzdüyünü dərk edər. Lakin nə qədər saysa da, onları tam bitirə bilməz: "**Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz**" *(İbrahim, 34)*; "**Sizə gələn hər bir nemət Allahdandır**" *(ən-Nəhl, 53)*. İnsan Allahın nemətləri haqqında öz daxilində danışdıqca ruhunda bir zənginlik və

---

[1] əd-Duha, 11

bolluq hiss edər. Bu təfəkkür qəlbdəki kədər və məhrumiyyət qaranlığını dağıdar. Nemətləri xatırlamaq insanda Allaha qarşı minnətdarlıq, sevgi və təzim hissini artırar, hər bir ehtiyac anında Ona yönəlməyi asanlaşdırar. Allah rəsulu ﷺ hər gecə yatmazdan əvvəl bu nemətləri dilinə gətirərək belə deyərdi: *"Bizi yedizdirən, içizdirən, ehtiyaclarımızı ödəyən və bizə sığınacaq verən Allaha həmd olsun! Dünyada ehtiyacını ödəyəni və sığınacağı olanı olmayan nə qədər insan var!"*[1] Peyğəmbərimiz ﷺ burada hər gün təkrarlanan və adiləşdiyi üçün fərqinə varılmayan nemətləri xatırlatmışdır. Bu nemətlər barədə danışmaq onlardan alınan mənəvi zövqü və Allaha olan minnətdarlığı daim təzələyir.

---

[1] Müslim, 2715

## SON SÖZ

Bu, Qurani-Kərimin surələrindən və ayələrindən bəzi seçmə nümunələr idi.

Hər hansı bir böyük kitabı bir dəfə, iki dəfə oxuyarsan... Üçüncü dəfə isə bəlkə də sənə yorğunluq və bezginlik gələr. Lakin bu əzəmətli kitab olan Qurani-Kərim belə deyil; onu min dəfə oxusan da bezməzsən. Hər yeni oxunuşda o, səni heyran edir, sənə zövq verir və sənə öz sirlərini açır.

- **Özünü Tanıma Pəncərəsi:** O, sənə elə pəncərələr açır ki, oradan baxdıqda həm özünü, həm də ətrafındakı kainatı görürsən.
- **Dərinlik və Uzaqlıq:** Sənə ən kiçik incəlikləri görmək üçün "mikroskop", ən uzaq və ən böyük həqiqətləri dərk etmək üçün isə "teleskop" bəxş edir.
- **Ruhun Şəfası:** Səni səndən alıb yenə sənə qaytarır! Bu, təsviri mümkün olmayan bir hissdir; ruhunun dərinliklərinə süzülür, səni qorxu, xüşu və göz yaşlarına qərq edir.
- **İnsanın "Təlimat Kitabı":** Sanki sən bir "alətsən", bu kitab isə sənin bütün detallarını izah edən, səndəki xəta yerlərini bilən və xarab olmuş hissələrini təmir edən yeganə bələdçidir!
- **Yol Xəritəsi:** O, xəritədir... Kompasdır... İstiqamətdir... Yoldur.

Hər bir kitabın möcüzəsi bir gün bitər, heyranlığı tükənər... Bu kitabdan başqa. Qurani-Kərimin ilk səhifəsinin ilk

sətrindən, son səhifəsinin son sətrinə qədər sən möhkəm və kamil bir binanın qarşısındasan. Orada bircə dənə də olsun xəta tapmamısan və tapmayacaqsan.

Onun elə bir mühəndisliyi var ki, mühəndislik elmini heyrətə salır. Kimya elmi isə Quran ayələrinin sənin daxilində yaratdığı o sirli "kimyəvi reaksiyanın" sirrinə heç vaxt aça bilməyəcək. Hər bir kitabda bir neçə oxunuşdan sonra nöqsan və ya xəta aşkar edə bilərsən, lakin Qurani-Kərimdə hər oxunuşda onun yeni bir üstünlüyünü, kamilliyini və möhtəşəmliyini kəşf edərsən.

# MÜNDƏRİCAT

Müqəddimə.......... 2
**Quranla tanışlıq**.......... 4
Quran necə nazil oldu?.......... 5
Quranın təkzibolunmaz dəlilləri.......... 8
Quranın doğruluğuna dair sübutlar.......... 13
Quranın qorunması.......... 17
**Quran surələrindən seçmələr**.......... 20
Fatihə surəsi.......... 21
Məryəm surəsi.......... 26
Qaf surəsi.......... 43
İxlas surəsi.......... 54
**Quran ayələrindən seçmələr**.......... 59
Allahı tanımaq.......... 61
Allahın əzəmətinin dəlilləri.......... 63
Tövhid – Allahın birliyi.......... 66
Allahın bəndələrinin günahlarını bağışlaması.......... 69
Allahın bəndələrinin dualarını qəbul etməsi.......... 71
Allaha ibadət.......... 72
Allaha bəndəlik etdiyimiz din.......... 74
Peyğəmbərlər.......... 76
Məhəmməd (Allahın ona salamı olsun!).......... 78
Quranda ağlın yeri.......... 80
İnsani münasibətlər.......... 82
Valideynə qayğı.......... 84
Quranda əxlaq anlayışı.......... 85
Quranda qadının yeri.......... 86
**Qurani qaydalar**.......... 90
Son söz.......... 96

## Digər kitablarımızla da tanış ola bilərsiz:

### * Peyğəmbərin gündəlik həyatı

Bu kitab Peyğəmbərin (sallallahu əleyhi və səlləm) gündəlik həyat proqramını təsvir edir və onun səhərdən növbəti səhərə qədər nələr etdiyini anladır.

### * Peyğəmbər həyatından seçmə qissələr

Bu kitab Peyğəmbərin (sallallahu əleyhi və səlləm) həyatında baş vermiş səhih hekayələri, həmçinin bu hadisələrin ən mühüm mənalarını və onlardan çıxarılan dərsləri təqdim edir.

### * Qədir-Xum hədisi

Bu kitab Peyğəmbərin (sallallahu əleyhi və səlləm) Əliyə (əleyhissalam) olan böyük ehtiramından, onun məqamını uca tutmasından bəhs edir, həmçinin Peyğəmbərin (sallallahu əleyhi və səlləm) Əli (əleyhissalam) barəsindəki vəsiyyətini və onun ifadə etdiyi mənaları izah edir.

## Bu kitablarla tanış olmaq üçün QR kodu oxudun!

# QURAN İLƏ TANIŞLIQ

Bu kitab Quranı daha yaxından tanımaq, onun ilahi mesajını anlamaq və gündəlik həyatımızda onun nurundan bəhrələnmək istəyən hər kəs üçün hazırlanmışdır. Kitabda Quran surələrindən və ayələrindən seçilmiş nümunələr vasitəsilə Quranın əsas mövzuları – iman, ibadət, əxlaq, müsəlman cəmiyyətinin dəyərləri və Allahın insana yönəlik rəhbərliyi izah olunur.

Məqsəd oxucunu Quranla mənəvi bir tanışlığa çağırmaq, onun hikmətini qəlbə və həyata köçürməkdir.

